## Ukrayna Baş Qərargahı məlumat yayıb

Son sutkada Rusiyanın 20 tankı məhv edilib



**”Son sutkada Ukraynada Rusiya ordusunun daha 20 tankı məhv edilib”.**

”Report” xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb.

Qeyd olunub ki, ötən gün Rusiyanın daha 460 hərbçisi zərərsizləşdirilib. Bununla da müharibə başlayandan bəri Rusiyanın canlı qüvvə itkilərinin sayı 50610-a çatıb.

Bildirilib ki, Rusiyanın digər döyüş itkiləri 2 097 tank, 4 520 zirehli döyüş maşını, 1 194 artilleriya sistemi, 300 reaktiv yaylım atəşi sistemi, 156 hava hücumundan müdafiə sistemi, 237 təyyarə, 208 helikopter, 880 PUA, 214 qanadlı raket, 15 gəmi, 3 320 avtomobil texnikası və avtosistern, 109 xüsusi texnikadan ibarətdir.

## Laçında ekskavator atəşə tutulub

Xəsarət alan olmayıb



Sentyabrın 7-si saat 08:10-dək 12:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

(səh.2)



# Vəsait ayrıldı

Şuşada Sadıqcanın yaşadığı ev bərpa olunacaq

**Prezident İlham Əliyev Şuşa şəhərində Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şuşa şəhərində yerləşən Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın (Sadıqcanın) yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən ”Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi” publik hüquqi şəxsə ilkin olaraq 600,0 (altı yüz) min manat vəsait ayrılıb.


❐ № 160 (5682), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 sentyabr 2022-ci il (cümə axşamı)






## İlham Əliyev Elizabet Trassı təbrik edib

Prezident: “Azərbaycanla Birləşmiş Krallığı ənənəvi dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Elizabet Trassa təbrik məktubu ünvanlayıb.**

*Təbrikdə deyilir:*

”Hörmətli xanım Baş nazir,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

## "Aİ Azərbaycan üçün 2 milyard avro investisiya hədəfini elan edib"



**Avropa İttifaqı Azərbaycan üçün 2 milyard avro investisiya hədəfini elan edib.**

”APA-Economics” xəbər verir ki, bunu Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko deyib.

O bildirib ki, Aİ Şərq Tərəfdaşlığı İqtisadi və İnvestisiya Planı kontekstində Azərbaycana investisiyaları dəstəkləyir. Bu ilin əvvəlində komissar Varhelyi Azərbaycan üçün 2 milyard avro investisiya hədəfini elan edib və biz bunu reallaşdırmaq üçün BMİ və Aİ Üzv Dövlətləri ilə sıx əməkdaşlıq edirik. "EU for Business" bu baxımdan əsas təşəbbüsdür və mən şadam ki, Azərbaycanla əməkdaşlığımız öz bəhrəsini verir. Bu birgə texniki əməkdaşlıq proqramının uğurla başa çatması Azərbaycan hökuməti, ölkədəki biznes və icraçı tərəfdaşlarımız ilə güclü tərəfdaşlığımızın göstəricisidir”- deyə, Peter Mixalko əlavə edib.

# Sərhədlər açılacaqmı?

## Paşinyan hakimiyyəti sülh müqaviləsində israrlıdır




Baş nazir anlayır ki, Rusiyadan xilas olmağın yolu Qarabağ məsələsinin birdəfəlik həllindən keçir

**Vladivostokda keçirilən Forumda çıxış edən Ermənistan Baş naziri Nikol Paşinyan bildirib ki, Cənubi Qafqazda kommunikasiyaların açılması üzrə Üçtərəfli Komissiyanın işində irəliləyiş var.**

Paşinyan Rusiyanın regionda əsas təhlükəsizlik faktoru olduğunu söyləyib.

O, bəzi qüvvələrin Ermənistan hakimiyyətini həddən artıq qərbpərəst, ya da rusyönümlü kimi təqdim etməyə çalışdığını bildirib: "Həmin qüvvələr bu hərəkətləri ilə regionumuzda vəziyyəti de-stabilləşdirmək istəyirlər”.

(səh.3)

# Cəmiyyətimiz prosesə hazır deyil

Azərbaycanda Donor bankının yaradılması sual altındadır



**Bir neçə orqanın transplantasiyasını təcili edən amillər açıqlanıb.**

Bu, Nazirlər Kabinetinin ”Donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar”ın və ”Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı”nın təsdiq edilməsi haqqında qərarında öz əksini tapıb.

(səh.3)

## Türkiyə Prezidenti ümidini itirib

“Ukraynadakı müharibə yaxın vaxtda bitənə oxşamır”



**”Rusiya ilə Ukrayna arasında daim balanslı olmağa çalışdıq. Bundan sonra da belə olacaq”.**

”Report” xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Serbiya dövlət başçısı Aleksandar Vuçiçlə birlikdə keçirdiyi mətbuat konfransında deyib.

”Qərbin indiki münasibətini doğru hesab etmirəm. Çünki Qərbin siyasəti təhrik üzərində qurulub. Belə olan halda nəticə əldə etmək mümkün deyil. Müharibənin məğlubu çoxdur. Qalibi isə yoxdur. Kimlərsə Ukraynaya maliyyə yardımı etdiyini deyir. Bəs hanı o vəsait?! Mən Rusiyanın və ya Ukraynanın qalib olduğunu deyə bilmərəm. Biz müharibənin bitməsini istəyirik. Amma savaş yaxın vaxtda başa çatana oxşamır. Qeyd edim ki, Rusiya xəfifə alınası ölkə deyil”, - o söyləyib.

## 7 nəfər ölüb

Daha 502 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 502 yeni yoluxma faktı qeydə alınıb, 611 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 7 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 816 589 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 803 562 nəfər müalicə olunaraq sağalıb, 9 838 nəfər vəfat edib, aktiv xəstə sayı 3 189 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 343, hazırkı dövrədək isə 7 180 867 test aparılıb.*

## Ağsuda itkin düşən qız Abşeronda atası tərəfindən qətlə yetirilib



**Abşeronda qətl törədilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ağsu rayon Pirhəsənli kənd sakini, əvvəllər məhkum olunmuş Nazim Əliyev Abşeron rayona gələrək qızı Aybəniz Abdullayevanı bıçaqla qətlə yetirib.**

Xatırladaq ki, sentyabrın 2-də Ağsu rayon Polis Şöbəsinə daha bir şəxsin itkin düşməsi barədə də məlumat daxil olub. Belə ki, rayon sakini, 1989-cu il təvəllüdlü Aybəniz Abdullayeva sentyabrın 2-də yaşadığı evdən çıxaraq bir daha geri qayıtmayıb.



## Kim İdarə Heyətinə düşmək istəyirsə, namizədliyini verə bilər

Mətbuat Şurasının qurultayında kifayət qədər yeniliklər gözlənilir

(səh.3)

## 500-ə yaxın müəllim bəzi sözlərin düzgün yazılışını tapa bilməyib

Emin Əmrullayev: ”25-28 yaşlı müəllimlərimizin hamısı sertifikasiyadan uğurla keçib”

(səh.5)



# İlham Əliyev Elizabet Trassı təbrik edib

## Prezident: “Azərbaycanla Birləşmiş Krallığı ənənəvi dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir”





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Elizabet Trassa təbrik məktubu ünvanlayıb.**

Təbrikdə deyilir:

"Hörmətli xanım Baş nazir,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallığı ənənəvi dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Dövlətlərarası əlaqələrimizin, siyasi, iqtisadi-ticari, enerji və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın hazırkı yüksək səviyyəsi və gündən-günə yeni məzmunla zənginləşməsi xüsusi məmnunluq doğurur.

Birləşmiş Krallıq Azərbaycanın ən iri ticarət tərəfdaşlarından biridir. Ölkənizi təmsil edən şirkətlər, o cümlədən neftqaz hasilatında etibarlı tərəfdaşımız olan BP Azərbaycanda uğurla fəaliyyət göstərir və bir sıra vacib layihələrin həyata keçirilməsində iştirak edirlər. Əməkdaşlığımızın prioritet istiqamətlərdən olan enerji sektorunda uzunmüddətli və məhsuldar işbirliyimiz qlobal enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə aparılan əsaslı bərpa və yenidənqurma işləri tərəfdaşlığımızın əhatə dairəsinin daha da genişlənməsi üçün əlverişli şərait yaratmışdır. Biz bu ərazilərin minalardan təmizlənməsi işinə Birləşmiş Krallığın verdiyi töhfəni yüksək qiymətləndiririk.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, birgə fəaliyyətimizin dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə bir daha təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm".

**Prezident İlham Əliyev Kəlbəcər və Zəngilan şəhərlərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**



# Kəlbəcər və Zəngilanda məktəb tikiləcək

Sərəncama əsasən, Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb.

Prezident İlham Əliyevin imzaladığı digər sərəncamla, Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılıb

# Putinin əli hələ də Paşinyanın çiynindədir

O, Cənubi Qafqazdakı son forpostunun Azərbaycan qarşısında tam gücsüz duruma düşməsinin qarşısını almaq istəyir



**Dünən Rusiya Prezidenti Vladimir Putin Ermənistan Baş naziri Nikol Paşinyanla görüşüb. Görüş Vladivostokda keçirilən Şərq İqtisadiyyat Forumu çərçivəsində baş tutub.**

Putin çıxışında ikitərəfli münasibətlərin səviyyəsindən danışıb. O, eyni zamanda, iki ölkə arasında ən həssas məsələlərdən birinin Qarabağ olduğuna diqqət çəkib. Putin Qarabağın təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb.

**Görüşlə bağlı danışan politoloq Elxan Şahinoğlu bildirib ki, Rusiya Prezidenti Vladimir Putinin bölgədə iqtisadi dəyəri olmayan Ermənistanın baş nazirini uzaq Vladivostokda iqtisadi foruma dəvət etməsinin bir sıra məqsədləri var. Analitik qeyd edib ki, Vladimir Putin ikili oynayır:** "Putin bir tərəfdən Azərbaycanla strateji tərəfdaşlıqdan danışır. Digər tərəfdən İkinci Qarabağ müharibəsindən sonra Ermənistana dəxli olmayan mövzunu bu ölkənin baş naziri ilə müzakirə edir. Putinin Paşinyandan xoşu gəlməsə də, Kreml sahibi Ermənistandan imtina etməyib. O, Cənubi Qafqazdakı son forpostunun Azərbaycan qarşısında tam gücsüz duruma düşməsinin qarşısını almaq istəyir. Paşinyanın böyük ehtimalla Putindən xahişi bu olub ki, Rusiya hərbçiləri Azərbaycana Qarabağda qayda-qanun yaratmasına imkan verməsinlər. Rusiyalı hərbçilər alternativ yolu "dəhliz" adlandırır və əli silahlı erməni separatçılarının yol boyu hərəkətlərinə şərait yaradırlar. Bunun özü elə Azərbaycana qarşı növbəti təxribatdır".

İsmayıl



# Artıq işlərə başlanılıb

## Azərbaycan Ordusu Türkiyə şirkətinin hərbi proqram təminatından istifadə edəcək

**Azərbaycan Türkiyənin HAVELSAN şirkətinin hərbi proqram təminatından istifadə edəcək.**

APA xəbər verir ki, bunu Bakıda keçirilən 4-cü "ADEX" sərgisi çərçivəsində "Anadolu"ya açıqlamasında "HAVELSAN Azərbaycan"ın rəhbəri Erhan Abdullah Kanat deyib.

O bildirib ki, bu istiqamətdə artıq işlərə başlanılıb və qısa müddətdə tamamlanacağı gözlənilir.

"Azərbaycanın fərqli komandanlıqları ilə də proqram təminatı barədə müzakirələr davam edir. Xüsusən Azərbaycanın dənizdə müdafiə qabiliyyətinin artırılması istiqamətində işlər aparılır", - Erhan Abdullah Kanat əlavə edib.

O qeyd edib ki, Azərbaycanda 2006-cı ildən fəaliyyət göstəririk, İkinci Qarabağ müharibəsindən sonra işlər artıb və il yarım əvvəl HAVELSAN-ın Azərbaycan ofisi açılıb.

# Laçında ekskavator atəşə tutulub

## Xəsarət alan olmayıb

**Sentyabrın 7-si saat 08:10-dan 12:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.**



Müdafiə Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, eyni zamanda, qeyd olunan istiqamətdə bölmələrimizin təminat yollarının çəkilməsi məqsədilə yol işləri aparan mülki şirkətə məxsus texnika da atəşə məruz qalıb.

Şirkətin texnikasına zərər dəysə də, xəsarət alan olmayıb.

Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarının qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb. Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Bildiririk ki, dövlət sərhədində yaradılan istənilən qarşıdurmanın nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Qərbi və Ukraynanı çətin qış gözləyir

## NATO-nun Baş katibi yaxınlaşan təhlükə ilə bağlı xəbərdarlıq edib

**NATO-nun Baş katibi Yens Stoltenberq hesab edir ki, qarşıdan gələn qış Kiyevi dəstəkləyən Qərb ölkələri və Ukrayna üçün çətin keçəcək.**

Azərtac xəbər verir ki, Yens Stoltenberq bu barədə Böyük Britaniyanın "Financial Times" qəzetində dərc olunan məqaləsində yazıb. Onun sözlərinə görə, Avropa əhalisi və müəssisələr elektrik enerjisi qiymətlərinin sürətlə artmasından əziyyət çəkməyə davam etdikcə blokun birlik və həmrəyliyi ciddi sınaqdan keçəcək. Şimali Atlantika alyansının rəhbəri Qərb ölkələrində "sosial iğtişaşlar" və enerji təchizatında fasilələrin ola biləcəyini də istisna etməyib.

*Qeyd edək ki, fevralın 24-də Rusiya Ukraynaya qarşı müharibəyə başlayıb. Qərb buna cavab olaraq Moskvaya qarşı sanksiyaları gücləndirib, həmçinin Kiyevə milyardlarla dollar həcmində silah və hərbi texnika verib.*

# Bakıda 13 yaşlı qız ana oldu

## Qurumlar qızı və körpəni nəzarətə götürüb



**Ombudsmanın nümayəndələri Bakıda ana olmuş azyaşlı ilə görüşüblər.**

Qurumdan Trend-ə verilən məlumata görə, 13 yaşlı qızın ana olması ilə bağlı kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə yayımlanmış məlumat Ombudsman tərəfindən nəzarətə götürülüb.

Ombudsmanın tapşırığına əsasən, Aparatın əməkdaşları, həmçinin psixoloqu həmin qızla görüşərək onun və doğulan körpənin səhhəti ilə maraqlanıblar.

Eyni zamanda, məsələ ilə bağlı hüquq mühafizə orqanlarına müraciət ünvanlanıb.

Eyni zamanda 13 yaşlı qızın ana olması barədə yayılan məlumatla əlaqədar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi dərhal aidiyyəti qurumlara müraciət edib.

Trend-in məlumatına görə, bu barədə Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu bildirib.

O vurğulayıb ki, Dövlət Komitəsinin əməkdaşları psixoloqun iştirakı ilə tibb müəssisəsində olub, yetkinlik yaşına çatmayan qızın sağlamlıq vəziyyəti ilə maraqlanıb və onun psixoloji durumu qiymətləndirilib.

"Qeyd edək ki, azyaşlı ananın və yenidoğulmuş körpənin sonrakı taleyi ilə bağlı məsələlər Dövlət Komitəsi və aidiyyəti qurumlar tərəfindən nəzarətə götürülüb və bu istiqamətdə müvafiq tədbirlər görülməkdədir", - deyə Teymur Mərdanoğlu bildirib.

# Partiyalar dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərə bilməyəcək

## Seçkilərdə 2 dəfə iştirak etməyən siyasi partiyalar ləğv ediləcək

**Milli Məclisin sədri Sahibə Qafarovanın tapşırığına əsasən, parlamentdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üzərində iş davam edir. Ölkəmizdə dövlət qeydiyyatına alınmış 39 siyasi partiya yeni qanun layihəsi ilə bağlı təkliflərini artıq Milli Məclisə təqdim edib.**



"Siyasi partiyanın Azərbaycan hüdudlarından kənarda istənilən növ hesab açması qadağandır. Partiya pul vəsaitini yalnız milli valyutada və nağdsız qaydada bank hesabına köçürmə yolu ilə qəbul edir"

Qeyd olunub ki, yeni qanun layihəsinin hazırlanması prosesində 20-dən artıq ölkənin bu sahədə təcrübəsi və Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi üzrə 2010-cu və 2020-ci illərdə qəbul etdiyi tövsiyələri də nəzərdən keçirilib. Qabaqcadan bildirildiyi kimi, "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin geniş müzakirəsi məqsədi ilə Milli Məclisdə ictimai dinləmələrin keçirilməsi nəzərdə tutulub. İlk ictimai dinləmənin cari ilin sentyabrın 28-də keçirilməsi gözlənilir. İctimai dinləmə zamanı səsləndiriləcək fikirlər, o cümlədən irəli sürüləcək təkliflər nəzərdən keçiriləcək.

**Siyasi partiyanın təsisi üçün üzvlük tələbi 10 dəfə artırılır**

Azərbaycanda siyasi partiyanın təsis edilməsinə dair yeni tələblər müəyyənləşir. "Siyasi partiyalar haqqında" qanun layihəsinin ilkin variantına əsasən, siyasi partiya Azərbaycan ərazisində son 20 il daimi yaşayan tam fəaliyyət qabiliyyətli olan azı 200 vətəndaşı (təsisçilər) tərəfindən təsis edilir. Siyasi partiyanın təsis edilməsi məqsədilə təsisçilər təsis yığıncağını keçirirlər. Təsisçilərin siyasi partiyanın təsis yığıncağında nümayəndə vasitəsilə iştirakına yol verilmir. Təsis yığıncağında siyasi partiyanın nizamnaməsi və proqramı qəbul olunur, təmsilçilik məqsədilə təsisçilər sırasından səlahiyyətli şəxs müəyyən edilir. Siyasi partiyanın nizamnaməsində və proqramında çatışmazlıqlar aşkarlanarsa təsis yığıncağında həmin sənədlərdə müvafiq dəyişikliklər edilir. Siyasi partiyanın təsis yığıncağının nəticələri protokolla rəsmiləşdirilir. Təsis yığıncağının protokolunda, o cümlədən təsisçilərin və səlahiyyətli şəxsin adı, soyadı, atasının adı, həmçinin fərdi identifikasiya nömrəsi, doğulduğu tarix, qeydiyyat ünvanı və əlaqə telefon nömrəsi göstərilir.

Siyasi partiyanın hansı hallarda ləğv ediləcəyi də müəyyənləşməkdədir. Layihəyə əsasən, siyasi partiya Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda siyasi partiya qurultayının və ya məhkəmənin qərarı əsasında ləğv edilə bilər. Məsələn, Milli Məclisin deputatlarının, Azərbaycan Respublikası Prezidentinin və ya bələdiyyə seçkilərində ardıcıl olaraq 2 dəfə iştirak etmədikdə siyasi partiyanın fəaliyyətinə dayandırıla bilər.

**Siyasi partiyaların yaradılmasına və fəaliyyətinə hansı hallarda yol verilməyəcək?**

Azərbaycanda siyasi partiyaların təsis edilməsinə və fəaliyyətinə yol verilməyəcəyi hallar müəyyənləşib. Siyasi partiyaların təsis edilməsinə və fəaliyyətinə bu hallarda icazə verilmir: "Konstitusiya quruluşunun zorla dəyişdirilməsi, hakimiyyətin zorla ələ keçirilməsi, terrorçuluğa açıq çağırışlar, terrorçuluğun, dini ekstremizmin və digər ayrı-seçkiliyin təbliği zamanı partiya təsisinə imkan verilmir. Eyni zamanda Azərbaycan Respublikasının ərazisində xarici dövlətlərin siyasi partiyalarının, habelə onların bölmələrinin və təşkilatlarının təsis edilməsinə və fəaliyyətinə yol verilmir. Həmçinin, Silahlı Qüvvələrdə, dövlət orqanlarında, yerli özünüidarəetmə orqanlarında, təhsil müəssisələrində siyasi partiyaların təsis edilməsi və fəaliyyəti qadağandır".

Siyasi partiyaların dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilməyəcək. Layihəyə əsasən, siyasi partiyanın qərargahı Azərbaycan Respublikasında yerləşməlidir. Partiya fəaliyyətini Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirə bilər. Bütün xalqın adından danışmaq və bütün xalqın adından müraciət etmək hüququ yoxdur. Partiyalar öz hüquqlarından sui-istifadə etməməlidir. Siyasi partiyaya üzv olmaq kişi və qadınlar üçün eyni şərtlərlə mümkün olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır".

**"Siyasi partiyaya illik üzvlük haqqı 10 min manatı keçə bilməz"**

Siyasi partiyanın maliyyələşdirilməsi, o cümlədən ianələr qəbul etməsinin qadağan olduğu hallar açıqlanıb. Vurğulanıb ki, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət orqanları, yerli özünüidarəetmə orqanları, digər hüquqi şəxslər, o cümlədən ictimai birliklər və fondlar, dini qurumlar tərəfindən partiyaların maliyyələşməsi qadağandır. Həmçinin, beynəlxalq təşkilatlar, xarici dövlətlər və xarici hüquqi şəxslər də partiyaya maliyyə yardımı edə bilməz. Üzvün siyasi partiyaya il ərzində ödədiyi üzvlük haqlarının yuxarı həddi 10000 manatdan artıq ola bilməz. Üzvlük haqqının məbləğindən artıq ödənişlər ianə hesab edilir. Siyasi partiyanın Azərbaycan hüdudlarından kənarda istənilən növ hesab açması qadağandır. Partiya pul vəsaitini yalnız milli valyutada və nağdsız qaydada bank hesabına köçürmə yolu ilə qəbul edir.

İsmayıl

# Sərhədlər açılacaqmı?

## Paşinyan hakimiyyəti sülh müqaviləsində israrlıdır



Baş nazir anlayır ki, Rusiyadan xilas olmağın yolu Qarabağ məsələsinin birdəfəlik həllindən keçir

İsmayıl Qocayev

**Vladivostokda keçirilən Forumda çıxış edən Ermənistan Baş naziri Nikol Paşinyan bildirib ki, Cənubi Qafqazda kommunikasiyaların açılması üzrə Üçtərəfli Komissiyanın işində irəliləyiş var. Paşinyan Rusiyanın regionda əsas təhlükəsizlik faktoru olduğunu söyləyib.**

O, bəzi qüvvələrin Ermənistan hakimiyyətini həddən artıq qərbpərəst, ya da rusyönümlü kimi təqdim etməyə çalışdığını bildirib: "Həmin qüvvələr bu hərəkətləri ilə regionumuzda vəziyyəti destabilləşdirmək istəyirlər". Paşinyan Ermənistanın Azərbaycanla sərhədlərin açılmasında maraqlı olduğunu, Rusiyanın dəstəyi ilə prosesi başa çatdırmağı gözlədiyini deyib. Ermənistan lideri Rusiya ilə münasibətlərin strateji xarakter daşıdığını və bu dəstəyə görə ölkəsində iqtisadi böhranın olmadığını söyləyib.



**Ermənistan baş nazirinin Rusiyadan verdiyi mesajları dəyərləndirən politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Paşinyan hakimiyyəti sülhdə israrlıdır. Analitikə görə, əslində Baş nazir Nikol Paşinyanın məqsədi Ermənistanı Moskvanın ağuşundan xilas edərək Qərbə inteqrasiya etdirməkdir:** "Paşinyan fərqindədir ki, bunun üçün ilk növbədə Qarabağ məsələsi birdəfəlik həllini tapmalıdır. Qarabağ problem olaraq qalarsa, Azərbaycanla yekun sülh imzalanmazsa, Türkiyə ilə əməkdaşlıq normallaşmazsa, İrəvanın Qərbə inteqrasiyası qeyri-mümkündür. Baş nazir onu da dərk edir ki, tərəflər arasında ən optimal razılaşmalar məhz Brüssel görüşlərində reallaşır. Paşinyan məhz Brüssel görüşlərindən əvvəl və sonra müsbət açıqlamalar verir, ilin sonuna kimi sülh müqaviləsinin imzalana biləcəyindən, sərhədlərin açılmasından danışır. Hamıya aydındır ki, bu prosesə ən böyük maneə Rusiya tərəfdəndir. Rus mediası qəsdən və qərəzli şəkildə Avropa İttifaqının təşəbbüsü ilə keçirilən Brüssel görüşlərinin əhəmiyyətini azaltmağa çalışır. Hətta Rusiya XİN başçısı və qurum sözçüsü Mariya Zaxarova açıq şəkildə Qərbi "aranı qarışdırmaqda, sülhə mane olmaqda" ittiham edir. Halbuki, burada yeganə vasitəçi, sülhyaradıcı qüvvə məhz Avropa İttifaqı, Brüsseldir. Paşinyan da Rusiyanın mane olacağını bildiyi üçün manevr edir. Kreml dəfələrlə baş nazirə məcburi söylədib ki, problemin həllində əsas həlledici güc Rusiyadır".

T.Rzayevə görə, Ermənistan lideri Rusiyanın dəstəyini də itirmək istəmir. Ona görə də iddia edildiyi kimi "qərbyönlü" olmadığını söyləyir: "Ancaq eyni cümlənin içərisində "ruspərəst" ifadəsini də səsləndirir və bunları ittiham kimi qələmə verir. Paşinyan "qərb və ruspərəst" iddialarını gündəmə gətirərkən əslində Rusiyanın Ermənistanda dəstəklədiyi müxalifətə diqqət çəkir. Hamıya bəllidir ki, "Qarabağ klanı", Sarkisyan-Koçaryan cütlüyü, Vardanyan Rusiyanın Paşinyana qarşı planıdır. Paşinyan bu cür açıqlamalarla Rusiyanın mövqeyini neytrallaşdırmağa çalışır. Digər yandan isə Cənubi Qafqazda kommunikasiyaların açılması məsələsində Moskvanın dəstəyini almaq niyyəti güdür".

---



**IX siniflərin buraxılış imtahanlarında riyaziyyat və xarici dildə geriləmə müşahidə olunub.**

# Açıq tipli suallar artıb

## Ona görə buraxılış imtahanlarında riyaziyyat və xarici dildən geriləmə qeydə alınıb

Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransında çıxışı zamanı deyib. O qeyd edib ki, 4 rayonda məktəbin nəticələri aşağı olub: "Buraya Sabunçu, Qaradağ, Xəzər və Pirallahı aiddir. Yeni tədris ilində əsas diqqətləri məhz həmin məktəblərə yönəldəcəyik".

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında məktəblərə hansı formada diqqətin yönəldiləcəyinin anlaşılmaz qaldığını dedi:**

- Məktəblərə diqqəti hansı formada, necə yönəldəcəklər? Məsələnin kökü yalnız məktəbdə deyil. Bəli, orta məktəblərdə istər riyaziyyat, istərsə ingilis dili və ya digər hansısa fənnin zəif keçilməsi faktı var. Tədrisin keyfiyyətindən çox şey asılıdır, lakin hər şey yox. 2019-cu ildən bəri buraxılış və qəbul imtahanları kurikulum sistemi üzrə yeni qaydalarla keçirilir. Əvvəllər imtahanlarda test tapşırıqları çoxluq təşkil edirdi, indi isə açıq tipli suallara çox yer verilir. Xarici dildən isə imtahan tapşırıqlarına dinləmə, tərcümə tipli suallar da daxil edilib. Bundan əvvəl yadınızdadırsa, Xİ siniflərin buraxılış imtahanlarında da xarici dil üzrə dinləmə tapşırıqlarının səsləndirilməsindən narazılıq yaranmışdı, daha sonra DİM-in doktorantura və dissertantura səviyyəsində keçirilən imtahanlarında abituriyentlər dinləmə tapşırıqlarından narazılıq etdilər, onlar üçün yenidən imtahan keçirildi. Buraxılış imtahanlarında xarici dil üzrə geriləmə məhz bununla bağlıdır - açıq tipli sualların artması ilə. Həmçinin, riyaziyyat fənni üzrə də açıq tipli suallar artırılıb. Şagirdlər açıq tipli sualların həllinə çox vaxt sərf edir, nəticədə yekun göstərici aşağı olur. Buraxılış imtahanlarında riyaziyyat və xarici dil üzrə göstəricilərin zəif olması imtahanlarda sual formatlarına dəyişiklik edilməsidir.

> "Şagirdlər açıq tipli sualların həllinə çox vaxt sərf edir, nəticədə yekun göstərici aşağı olur"

**Məlahət Rzayeva**

---



# Kim İdarə Heyətinə düşmək istəyirsə, namizədliyini verə bilər

## Mətbuat Şurasının qurultayında kifayət qədər yeniliklər gözlənilir

**Mətbuat Şurasının növbəti qurultayı sentyabrın 24-nə təyin olunub. İdarə Heyətinin iclasında çıxış edən MŞ sədri Əflatun Amaşov bildirib ki, Şuranın Nizamnaməsinə əsasən hər dörd ildən bir Azərbaycan jurnalistlərinin qurultayı keçirilməli, İdarə Heyəti yenidən seçilməlidir.**

Bundan başqa MŞ-nin Nəzarət-Təftiş Komissiyasının tərkibi də yenilənməlidir. Prosedur qaydalara müvafiq olaraq ali məclisin düzənlənməsi üçün qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi yaradılmalıdır: "İndiyədək Azərbaycan jurnalistlərinin yeddi qurultayı keçirilib. Axırıncısı 2018-ci ildə baş tutub. Artıq vaxtdır. Bu, sayca səkkizinci ali məclisimiz olacaq. Əvvəlki illərin təcrübəsini nəzərə alaraq deyə bilərəm ki, qurultaya hazırlıq üçün formalaşdırılacaq Təşkilat Komitəsinin üzvləri bir qayda olaraq İdarə Heyətinin üzvlərindən təşkil edilir. Başqa təklif yoxdursa, yenə həmin qaydada olsun. Fikrimcə, birlikdə prosesə effektiv hazırlığı reallaşdıra biləcəyik". Amaşov onu da vurğulayıb ki, Azərbaycan jurnalistlərinin VIII qurultayının təşkili məqsədilə Mətbuat Şurasına üzv təşkilatlarla müvafiq iş aparılmalıdır. İdarə Heyətinin üzvləri də çıxışlarında Azərbaycan jurnalistlərinin indiyədək keçirilmiş qurultaylarının ölkənin ictimai həyatında mühüm əlamətdar hadisələr kimi yadda qaldığını vurğulayıblar. Onlar bu ənənənin davamlılığı üçün səkkizinci ali məclisə hazırlıq işlərinin də yüksək səviyyədə görülməsinin vacibliyini önə çəkiblər. İclasda həmçinin qurultayın keçirilmə yeri, iştirak qaydası ilə bağlı bir sıra məsələlər müzakirə olunub, yekdil fikrə gəlinib.

**Mətbuat Şurasının qurultay qərarı ilə bağlı "Şərq"ə danışan MŞ-nin sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli deyib ki, qurultay nizamnaməyə uyğun olaraq dörd ildən bir keçirilir. Budəfəki qurultay da vaxtı çatmış növbəti qurultaydır. Onun sözlərinə görə, qurultayda təşkilati məsələlərə baxılacaq, İdarə Heyətinin üzvlərinin heyəti yenidən seçiləcək:** "O cümlədən sədr seçkisi keçiriləcək. Mətbuat Şurasının nizamnaməsində və digər sənədlərdə də dəyişiklik olması gözlənilir. Dəyişikliyin səbəbi odur ki, Mətbuat Şurasının fəaliyyətini müasir dövrün tələblərinə, çağırışlarına uyğunlaşdıraq. Sonuncu qurultaydan sonra kifayət qədər vaxt keçib. Dörd il ərzində Azərbaycan mediasında kifayət qədər dəyişiklik və inkişaf olub. Mətbuat Şurası da bu yeniliklərə uyğunlaşdırılacaq. Qurultayda kifayət qədər yeniliklər gözlənilir. Mətbuat Şurasının saytında iki anket forması yerləşdirilib. Anketlərin üzv təşkilatların qurultaya nümayəndə verməsi ilə bağlıdır. İkincisi isə insanlar kimi Mətbuat Şurasının İdarə Heyətində görmək istəyirlərsə, onunla bağlı öz təkliflərini verəcəklər. Adları həmin siyahıda çıxan şəxslər qurultayda müzakirəyə çıxarılacaq və onların arasından İdarə Heyətinin yeni üzvləri seçiləcəklər. Kim İdarə Heyətinə düşmək istəyirsə, namizədliyini irəli sürə bilər. Təbii ki, qurultayda iştirak səlahiyyəti olan şəxslərdən söhbət gedir. Əlbəttə, əlavə təşəbbüslər də göstərilə bilər. Misal üçün deyirəm, mən namizəd olub-olmayacağımı hələlik müəyyən etməmişəm. Amma ola bilər ki, hansı KİV redaksiyaları mənim namizədliyimi irəli sürə bilərlər. Şübhəsiz, burada yaşlı nəslin nümayəndələri ilə yanaşı, gənclər də ola bilər. Bunların hamısı qurultay iştirakçılarının, KİV subyektlərinin fikirlərindən asılıdır".

**M.Ələsgərli gənclərin iştirakçılığının da yaxşı hal olduğunu vurğulayıb:** "Biz də bunu gözləyirik. Hətta gender balansının da təmin olunması yaxşı olar. Mediamızda qadınlar kəmiyyət baxımından çox olsa da, strukturlarda iştirakla bağlı müəyyən çatışmazlıqlar var. Arzu ediləndir ki, bu dəfə xanım jurnalistlərin də təmsilçiliyi çox olsun. Eyni zamanda gənclərin də sayı çoxalsın. Yenə deyirəm, bunlar arzuolunandır və qurultay iştirakçılarının rəyindən asılıdır. Təbii ki, qurultay iştirakçıları kimə rəy verəcəklərsə, onlar da Mətbuat Şurasının İdarə Heyətinə düşəcəklər".

> "Mediamızda qadınlar kəmiyyət baxımından çox olsa da, strukturlarda iştirakla bağlı müəyyən çatışmazlıqlar var. Arzu ediləndir ki, bu dəfə xanım jurnalistlərin də təmsilçiliyi çox olsun"

**İsmayıl Qocayev**

---

# Cəmiyyətimiz prosesə hazır deyil

## Azərbaycanda Donor bankının yaradılması sual altındadır



> "Azərbaycanda hansı valideyn imkan verəcək ki, onun beyin ölümü keçirmiş, lakin hələ də nəfəs alan cavan övladının orqanları götürülsün"

**Bir neçə orqanın transplantasiyasını təcili edən amillər açıqlanıb. Bu, Nazirlər Kabinetinin "Donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar"ın və "Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı"nın təsdiq edilməsi haqqında qərarında öz əksini tapıb.**

Qərara əsasən, ürəyin, böyrəyin, ağciyərin, qaraciyərin transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair 18 yaşından yuxarı şəxslər üçün meyarlar tətbiq edilib.

**Professor, ATU Transplantologiya kafedrasının müdiri Adil Qeybullanın sözlərinə görə, transplantasiya metodu və ya hansı hallarda köçürülməsindən əvvəl bizdə prosesin düzgün təşkili təmin edilməlidir:**

"Bioloji materialların bir orqanizmdən digərinə köçürülməsi praktikası yeni deyil. Dünya ölkələrində bu sahə kifayət qədər təkmilləşib və problemsiz həyata keçirilir. Xüsusən də ürək, böyrək, ağciyər, qaraciyər, mədəaltı vəz kimi mühüm funksiyaları yerinə yetirən daxili orqanların transplantasiyası getdikcə təkmilləşir. Azərbaycan səhiyyəsində bu istiqamətdə təkmil bir sistem yaratmadan, şəffaflığı təmin edib, orqan cinayətlərinin qarşısını alacaq mexanizm qurmadan orqan nəqlini yüksək səviyyədə həyata keçirmək mümkün deyil.

Sistemin təşkili üçün də vacib məqam Donor bankının yaradılmasıdı. Elə bir sistem qurulmalıdır ki, vahid mərkəzdən nəzarət mümkün olsun. Məsələ bundan ibarətdir ki, sistemli donor nəqlində tutaq ki, Azərbaycanın hansısa bir rayonunda kiməsə hansısa orqan lazımdırsa, başqa bir rayonda həmin orqan peyda olan kimi o sistemdə görünür, xəstəyə yönəldilir və əməliyyat həyata keçirilir. Bu, çox effektiv bir sistemdir.

Məsələnin sistemli şəkildə ölkədə əsasının qoyulması donor bankının yaradılmasından keçir. Azərbaycan cəmiyyətində isə Donor bankının yaradılması sual altındadır. Cəmiyyətimiz, insanlarımız buna hazır deyil. Qonşu Türkiyədə bu sistem çox uğurla işləyir. Donor orqanı beyin ölümü keçirmiş cavan və sağlam adamlardan alınır. Azərbaycanda hansı valideyn imkan verəcək ki, onun beyin ölümü keçirmiş, lakin hələ də nəfəs alan cavan övladının orqanları götürülsün. Onlar heç ölən xəstəni yarmağa qoymurlar. Bu çox ciddi bir məsələdir. Gərək insanların psixologiyasında dəyişiklik olsun, bu məsələni həzm edə bilsinlər. Başa düşsünlər ki, ölən və artıq heç bir perspektivi olmayan bir adamın orqanı başqa birinin həyatına başlanğıc verə bilər. Nə qədər ki, insanlar bunu qəbul etmir və buna bu cür yanaşmırlarsa, bu məsələ hələ uzun müddət problem olaraq qalacaq".

**Professorun fikrincə, yaxın qohumlar istisna olmaqla kiminsə kimə orqan bağışlaması özlüyündə kriminal mahiyyət daşıyır.** Təbii ki, söhbət canlı orqanizmdən götürülən orqandan gedir. Bir çox hallarda orqan transplantasiyanın arxasında maddi maraqlar dayandığı üçün dünyada daha çox kliniki ölüm keçirən insanların orqanlarından istifadəyə üstünlük verilir: "Bu məsələdə əhalini xeyli maarifləndirmək lazımdır. Bu məsələlərin texniki, mənəvi, psixoloji tərəfləri cəmiyyətdə öz həllini tam tapmamış Azərbaycanda orqan transplantasiyası yetərincə yayılıb inkişaf etməyəcək. Televiziyalar və digər media orqanları bu istiqamətdə təbliğat aparmalı və insanları bu prosesə hazırlamalıdır. Qalan bütün məsələlər zamanla öz həllini tapacaq. Zatən bu işlə məşğul olan mütəxəssislər nəyi necə edəcəyini, orqanı hansı halda köçürəcəyini yaxşı bilir".



> "Bu məsələdə əhalini xeyli maarifləndirmək lazımdır. Bu məsələlərin texniki, mənəvi, psixoloji tərəfləri cəmiyyətdə öz həllini tam tapmamış Azərbaycanda orqan transplantasiyası yetərincə yayılıb inkişaf etməyəcək"

**Şəymən Bayramova**

# Sərhəddəki təxribatlar təsadüfi deyil

## Bütövlükdə ordu, diaspora, lobbi və digər qüvvələr Paşinyan hökumətinə qarşı ciddi təzyiqlər göstərir



**Ermənistan dövlət sərhədində Azərbaycan mövqelərinə qarşı təxribatları yenidən artırıb. Adətən, Azərbaycan və Ermənistan arasında ən yüksək səviyyəli görüşdən sonra belə hallar baş verir.**

Bundan əvvəl, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan Avropa İttifaqının vasitəçiliyi ilə Belçikanın paytaxtı Brüsseldə görüşəndən sonra da təxribatlar baş vermişdi. Bu cür provokasiyalar Ermənistanın regionla bağlı konstruktiv siyasətini sual altında qoyur. Çünki rəsmi İrəvan danışıqlar masası arxasına oturmasına baxmayaraq, digər tərəfdən sabotajları davam etdirir. Ermənistan Qərblə Rusiyanın arasında qalıb. Kremlin və Aİ-nin tələbləri fərqlidir. İrəvan isə onların hər ikisini razı salmağa çalışır. Ekspertlər sərhədin müxtəlif istiqamətlərində baş verən təxribatları Rusiya ilə əlaqələndirirlər. İstisna deyil ki, şimal qonşumuz Ermənistandakı əlaltıları vasitəsilə provokasiyalar törədir. Məqsəd Azərbaycanla Ermənistan arasında etimad mühitinə zərbə vurmaqdır. Ona görə də rəsmi İrəvan indiki məqamda iradə göstərməli, hansı yolla olur-olsun sabotajların qarşısını almağa çalışmalıdır. Çünki belə hallar sülh prosesinə mane olur və növbəti anti-terror əməliyyatına zəmin yaradır.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, Ermənistan Brüssel görüşündən ciddi itkilərlə çıxdı. Analitik vurğulayıb ki, bütövlükdə ordu, diaspora, lobbi və digər qüvvələr Paşinyan hökumətinə qarşı ciddi təzyiqlər göstərir:** "Sərhəddəki təxribatlar və regionda yaşanan digər hadisələr buradan qaynaqlanır. Lakin proseslərdə İrəvan hökumətinin də müəyyən rolu var. Əslində çox hibrid bir vəziyyət formalaşıb. Bir tərəfdən Paşinyanın diliylə sülh prosesindən söz açılır və ilin sonuna kimi müqavilənin imzalanmasının zərurətindən danışılır. Digər yandan "birləşdirici" faktor kimi qondarma "Artsax" uğrunda savaş məsələsi qabardılır. Bu məsələdə ABŞ-ın da ciddi rolu var. Hesab edirəm ki, Amerikada və Fransada müəyyən qruplaşmalar konkret olaraq sülh prosesinə zərbə vurmağa çalışırlar. Amerika Erməniləri Milli Komitəsi (ANCA) də təxribatlarda, pozuculuqda mühüm fəaliyyət sərgiləyir. Bunların hamısı kifayət qədər ciddi proseslərin getdiyindən xəbər verir. Təhlükəli tendensiyalar Azərbaycan-Ermənistan arasında atəşkəsin pozulması halları ilə müşayiət olunur. Ermənistan tərəfi sentyabrın 5-də erməni əsgərinin, guya, Azərbaycandan açılan snayper gülləsi ilə öldürüldüyünü tirajladı. Ancaq bu cinayəti ermənilərin özlərinin törətməsi ilə bağlı ciddi faktlar var".

**İsmayıl Qocayev**





# Xarici siyasətdə Qərb faktoru genişlənir

**Səməd Seyidov:**
"İndi Azərbaycan elə bir geosiyasi mövqeyə malikdir ki, hamı bəhrələnmək istəyir, o cümlədən də Qərb"

**Asim Mollazadə:**
"Azərbaycanın etibarlı tərəfdaş olduğunu dünyaya göstərmişik"

**"Azərbaycan Qərblə açıq siyasət yürüdüb. Qərbin münasibətini ikili standartları içərisində ehtiva edən siyasət kimi qiymətləndirirdik. Əsaslarımız da var idi. Bəzi Qərb ölkələri torpaqlarımızın işğalı dönəmində Azərbaycana obyektiv münasibət sərgiləmirdi".**

*Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili, Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib.*

Azərbaycanın əksər Qərb ölkəsi ilə geniş və artan templə inkişaf edən münasibətlərindən danışan parlamentarinin fikirlərinə görə, regiondakı reallıq dəyişib: "Artıq tarixin yaddaşına getmiş, bəzi qüvvələrin reanimasiya etməyə çalışdığı Minsk qrupu da həmin siyasətlə məşğul idi. İndi Azərbaycan elə bir geosiyasi mövqeyə malikdir ki, hamı bəhrələnmək istəyir, o cümlədən də Qərb.

Prezident İlham Əliyevin Brüsselə, İtaliyaya səfəri buna dəlalətdir. Hər iki səfərin önəmini xüsusi vurğulamaq istəyirəm. Birincisi, sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımdır.

İkincisi isə Azərbaycanın gücünü, qüdrətini, iqtisadi əlaqələrini göstərən səfərdir. Həm Azərbaycan tərəfindən Qərbə səfərlər çoxalacaq, həm də Qərbin Azərbaycana diqqəti artacaq".

**Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə isə bildirib ki, Azərbaycanın xarici siyasəti əməkdaşlıq, qarşılıqlı maraqlar üzərində qurulub:** "Azərbaycan bölgəni sabitlik, sülh, tərəfdaşlıq bölgəsinə çevirmək istəyir: Avropa ölkələri, Qərb və qardaş türk dövlətləri ilə sıx münasibətlər qurulur. Ölkəmiz Şərq istiqamətində də əməkdaşlığını genişləndirir. Orta Asiya ilə yanaşı qardaş və dost ölkə kimi Pakistanı daxil etmək olar. Azərbaycanın İtaliya, İspaniya ilə uğurlu strateji tərəfdaşlığı var. Biz əlaqələri daha da genişləndirmək istəyirik.

Enerji sahəsində Azərbaycanın etibarlı tərəfdaş olduğunu dünyaya göstərmişik. Bizim Rusiya ilə də əlaqələrimiz yaxşıdır. Qonşuluq münasibətlərini qoruyuruq".

Qeyd edək ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov İspaniyanın Madrid şəhərinə rəsmi səfərə yola düşüb.

Səfər çərçivəsində nazir Ceyhun Bayramovun İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq naziri və bir sıra digər yüksək səviyyəli rəsmi şəxslərlə ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

**Aygün Tahir**



# Mingəçevirdə gənclər şəhid məzarlarını təmizləyirlər

## Aydın Mirzəzadə: "Bu, gənclərin tarixə bağlılıq, şəhidlərə hörmət, vətənpərvərlik hissinin həddən artıq yüksək olduğunu göstərir"

**"Mingəçevirdə şəhid adına həmişə yüksək qiymət verilib. Həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhidlərimiz hörmətlə dəfn olundular. Şəhidlər kompleksinin təmiz saxlanmasına da sayğı ilə yanaşırlar. Bu, mingəçevirlilər üçün xarakterik cəhətdir. Şəhid ailələri və qazilərin problemlərinin həlli ilə bağlı müvafiq orqanlar, eləcə də yerli insanlar diqqət göstərir".**

*Bu sözləri Mingəçevirdən seçilən millət vəkili Aydın Mirzəzadə "Şərq"ə açıqlamasında şəhidlərin məzarını təmizləyən gənclərin addımına münasibət bildirərkən deyib.*

Parlamentari bildirib ki, gənclər heç bir tapşırıq olmadan, ürəklərindən gəldikləri hisslə şəhid məzarlarına hörmət bəsləyirlər: "Anadan olduğum, eyni zamanda parlamentdə təmsil etdiyim şəhərin gənclərinin belə addım atması məni qürurlandırır. Özüm də şəhid ailələrini ziyarət edirəm.

Şəhidlər kompleksinə dair kommunal təsərrüfatda xüsusi bölüm var. Onlar təmizliklə məşğul olurlar.

Bir dəfə görmüşdüm ki, uşaq köynəyini çıxarıb, şəhid qəbrini silmişdi. Sonra geyinib getmişdi. Bu, gənclərin tarixə bağlılıq, şəhidlərə hörmət, vətənpərvərlik hissinin həddən artıq yüksək olduğunu göstərir".

Qeyd edək ki, sosial şəbəkədə Mingəçevir şəhərində bir qrup gəncin şəhidlərin məzarını təmizlədiyi anın görüntüləri yayılıb.

Gənclərdən biri söyləyir: "Zaur adlı oğlan bunu təklif etdi. Fikir xoşumuza gəldi. Gəldik, birlikdə təmizləyirik".

**Aygün Tahir**




# Azərbaycanı yolundan heç kim döndərə bilməz

## ATƏT-in "ölmüş" Minsk qrupunu diriltmək cəhdi mənasızdır

**Son dövrlər bir sıra dövlətlərin ATƏT-in "ölmüş" Minsk qrupunu ciddi-cəhdlə diriltməyə çalışdıqları müşahidə olunur. Reallıq isə ondan ibarətdir ki, 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupu Azərbaycanla Ermənistan arasında keçmiş münaqişənin həllinə heç bir töhfə verə bilmədi.**

Əksinə, Azərbaycanın işğalla barışmasına ciddi-cəhdlər edildi, münaqişənin müharibə yolu ilə həllinin qeyri-mümkün olduğu israrla bildirildi. Əgər Azərbaycan "ölü" dünyaya gəlmiş bu qurumun ümidinə qalsaydı hələ də torpaqlarımız işğal altında idi. Bu qurumun nümayəndələri isə hələ də heç bir nəticəsi olmayan turist səfərlərinə davam edirdilər.

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, Azərbaycan özü BMT-nin 4 qətnaməsini icra edərək torpaqlarını işğaldan azad edib. Deputatın sözlərinə görə, ATƏT-in Minsk qrupuna ehtiyac yoxdur:** "Bu barədə dəfələrlə Prezident İlham Əliyev qətiyyətli və prinsipial mövqeyini bildirib. Bunu bütün dövlətlər və beynəlxalq qurumlar nəzərə almalıdırlar. Bəzi dövlətlərin ATƏT-in "ölmüş" Minsk qrupunu yenidən diriltmək cəhdlərinə gəldikdə isə bu, ayıb və utancvericidir. İndi bu qurumun "dirildilməsi" üçün ciddi-cəhdlər edən dövlətlər nə üçün o zaman keçmiş münaqişənin həllində bu qədər canfəşanlıq etmirdilər? Yoxsa münaqişənin həlli, bölgəyə sülhün gəlməsi onların maraqları ilə uzlaşmır? Azərbaycan ən qısa müddətdə bölgəyə sülhün gəlməsində və yekun sülh müqaviləsinin imzalanmasında maraqlıdır. Azərbaycan bu istiqamətdə səylə çalışır və ölkəmizi bu yoldan heç kim döndərə bilməz. Bölgəyə sülhün gəlməsində səmimi və maraqlı olan dövlətlər də əslində bu mövqedə olmalı idilər. Ancaq əksini görürük.

*Azərbaycanın yekun mövqeyi isə bundan ibarətdir.* Keçmiş münaqişənin həllinə heç bir töhfə verməyənlər indiki həssas məqamda heç olmasa bölgəyə sülhün gəlməsinə mane olmasınlar".

**İsmayıl**

# Reydlər, cəzalar effekt verməyəcək

## Yerdəki qanı yumamış digər heyvanı uzadıb kəsirlər

**"Dəfələrlə bu mövzuda danışmışıq. Konkret yerləri də qeyd etmişik ki, filan-filan ərazilərdəki kəsim məntəqələrində antisanitariya baş alıb gedir. Kiloqramla ət satılan yerlərin əksəriyyətində demək olar ki, vəziyyət çox acınacaqlıdır". Bu sözləri "Şərq"ə açıqlamasında Qida məsələləri üzrə mütəxəssis Ağa Salamov deyib.**

AQTA-nın sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə heyvan kəsimi hallarının qarşısının alınması məqsədilə keçirdiyi reydlərdə aşkarlanan antisanitar durumu şərh edən ekspert deyib ki, bir heyvan kəsildiyi yer yuyulmamış, yerə tökülən qanın içində o biri heyvanı yerə uzadıb kəsirlər. Bu isə birmənalı e.coli bakteriyalarının yayılmasına münbit şərait yaradır: "Qida zəhərlənmələrinin əksəriyyəti də məhz bu cür antisanitariya və mikrobioloji çirklənmə səbəbindən baş verir. Çox təəssüflər olsun ki, aidiyyəti qurumlar bunun qarşısını almaqda maraqlı deyil. Hansısa reydlər və cəza tədbirləri çıxış yolu deyil. Problemin həlli üçün əhali arasında maarifləndirmə olmalıdır. Bu işlə məşğul olan sahibkarları yığıb onlara bakteriyalarla bağlı məlumat verilməli, poverpoint proqramları vasitəsilə onlar ətin üzərinə yığılan bakteriyalarla tanış edilməlidir. Ətin saxlanma şəraiti ilə bağlı qəbul edilən standartlar barədə izahlı məlumat verilməlidir. Azərbaycanda isə hansısa bir xoşagəlməz hal, problem olan kimi müvafiq qurumlar cəza tədbirləri ilə qarşısını almağa çalışırlar. Qəbul edilən standartlar insanlara düzgün aşılansa, zamanla insanlar ona uyğunlaşacaqlar. İnsanlara xəbərdarlıq etmədən, kəsim qaydalarını izah etmədən yol verdikləri anisanitariyaya görə cərimələmək heç bir effekt vermir. Bu gün cərimısini ödəyib, sabah yenə öz bildiyi qaydada ət kəsməyə davam edir".



"Heyvanın kəsildiyi yerdən tutmuş doğrandığı yerə qədər bakteriyalarla doludur"

**Ekspertin sözlərinə görə, heyvanın kəsildiyi yerdən tutmuş doğrandığı yerə qədər bakteriyalarla doludur.** Mikrobları öldürmək üçün taxtanın üzərinə duz töksələr də, bir o qədər xeyri olmur. Artıq dünya ölkələri müasir standartlara cavab verən və qidalar üçün nəzərdə tutulan xüsusi doğrama taxtalarından istifadə edir. Hansı ki, həmin doğrama taxtasını xlorlu su ilə yumaq çox asandır və üzərində bakteriyalar yığılıb qalmır:

"Səyyar ət kəsilən məntəqələrin əksəriyyətində ət soyuducudan kənar, asılmış vəziyyətdə satılır. Və kəsilən heyvan saatlarla o vəziyyətdə saxlanılır. Halbuki, kəsilən ət +2 və ya +4 dərəcəlik soyuducuda özünü tutmalıdır. 4-5 saat açıq havada saxlanılan ət məhsulunun üzərində milyardlarla bakteriya yığılır. Bu isə uşaqlarda və yaşlı insanlarda zəhərlənmə riskini artırır".

Mütəxəssis insanlara ət məhsullarını səyyar kəsim məntəqələrindən yox, məhz marketlərdən almağı tövsiyə edir. Heç bir marketdə ət məhsulları açıq havada satılmır. Çünki bu barədə orada ciddi maarifləndirmə işləri aparılıb və xüsusi tapşırıq verilib: "Zoonoz xəstəliklərə yoluxma və digər neqativ halların yaranmaması üçün açıq havada, səyyar məntəqələrdə satılan ət və ət məhsullarının alınması və istehlak olunması tövsiyə edilmir".

*Qeyd edək ki, reydlərdə götürülən nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda müayinələrə cəlb olunub. Təqdim olunan ət nümunələrindən 241-də uyğunsuzluq aşkarlanıb. Nümunələrdə E.coli, Salmonella, Streptokokk, bağırsaq çöpü qrupu bakteriyaları (BÇQB) və anaerob bakteriyaları müəyyən edilib. Həmçinin aparılan müayinələr zamanı istehlakçılara mal və dana əti kimi təqdim olunan bəzi ət və ət məhsullarında at ətinin DNT-si aşkarlanıb.*

**Şəymən Bayramova**



# Ermənilər keçmişə deyil, gələcəyə baxmalıdır

## Zaur Məmmədov: "Əgər belə olmazsa, Azərbaycan rəsmi şəkildə Qərbi Zəngəzura və Göyçəyə iddialarını qaldıra bilər"

**Ermənistanın Baş naziri Nikol Paşinyanın partiyasının üzvü Arman Yeqoyan Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında Qarabağ mövzusunun müzakirə edilmədiyini və mümkün sazişə bu mövzunun aid olmadığını açıqlayıb. O, bu məlumatı Paşinyanın öz fraksiyası ilə görüşdə verdiyinə istinad edib.**

Erməni tərəfi həmişəki kimi daxili auditoriyanı aldatmaqla məşğuldur. Bəli, doğrudan da Azərbaycan-Ermənistan arasında açılım prosesində Qarabağ müzakirə olunmur. Çünki bu məsələ ölkəmizin daxili işidir. Bakı nə ATƏT-lə, nə də Ermənistanla Qarabağı müzakirə etmək fikrindədir. Prezidentin qeyd etdiyi kimi Qarabağa heç bir "status" verilməyəcək. İndiki halda danışıqların əsl məqsədi Ermənistanın Qarabağdan imtinası, Azərbaycana qarşı ərazi iddialarına son qoymasıdır. Əks təqdirdə, müzakirə edilən sülh müqaviləsi Azərbaycanın nəyinə lazımdır?

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib ki, Azərbaycan o şərtlə danışıqlarda iştirak edir ki, İrəvan keçmişə deyil, gələcəyə baxsın. Əgər belə olmazsa, Azərbaycan rəsmi şəkildə Qərbi Zəngəzura və Göyçəyə iddialarını qaldıra bilər:** "Məlum məsələdir ki, Qərbi Zəngəzurun və Göyçənin birtərəfli qaydada qeyri-qanuni şəkildə kommunistlər tərəfindən Ermənistana verilməsinin heç bir hüquqi əsası yoxdur. Elə bu yaxınlarda Qərbi azərbaycanlıların icmasının fəaliyyətə başlaması da ondan xəbər verir ki, tarixi ədalət mütləq şəkildə bərpa ediləcək. Öz növbəsində Azərbaycan və Ermənistan arasında mümkün sülh sazişi fonunda İrəvan konstitusiya dəyişikliyinə getməli, "Müstəqillik haqqında Akt"ına dəyişiklik etməlidir. 1991-ci ildə Ermənistan tərəfindən qəbul edilən bu sənədin 1989-cu ilin Ermənistan Ali Məclisinin qərarı əsasında hazırlandığı qeyd edilir. Əlbəttə, 2 dekabr tarixində qəbul edilən kağız parçasının heç bir hüquqi qüvvəsi yoxdur. Lakin bu və ya digər şəkildə gələcəkdə mümkün iddialardan sığortalanmaq üçün Ermənistanın rəsmi şəkildə Qarabağ və Ağrı dağından imtinası çox vacibdir. Hər halda hadisələr çox dinamikdir və region ətrafında baş verəcək hadisələrin küləyini hiss edəcəyimiz istisna deyil. Hayların öz aləmlərində apardıqları oyun onu göstərir ki, hər addımları ilə İrəvandan o tərəfə qovulmaları fantastik arzu olmayacaq".

**İsmayıl**

# 500-ə yaxın müəllim bəzi sözlərin düzgün yazılışını tapa bilməyib

## Emin Əmrullayev: "25-28 yaşlı müəllimlərimizin hamısı sertifikasiyadan uğurla keçib"

**"500-ə yaxın müəllim "anbar", "şənbə" və "pambıq" sözlərinin düzgün yazılışını tapa bilməyib". Bunu Elm və təhsil naziri Emin Əmrullayev Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransında çıxışında deyib. Nazir bildirib ki, 25-28 yaşlı müəllimlərimizin hamısı sertifikasiyadan uğurla keçib. O bildirib ki, əsas problemimiz 35-39 yaşdan başlayır:**

"Düzdür, hər bir yaşda səriştəli, bilikli müəllimlərimiz var. Məsələn, 61 yaşdan yuxarı olub və 51 baldan yuxarı toplayan 184 müəllimimiz var". Nazir qeyd edib ki, 469 müəllim sertifikasiyada "anbar", "şənbə" və "pambıq" sözləri verilmiş test tapşırığında sözün düzgün yazılışını tapa bilməyib. Bu, sertifikasiyada iştirak edənlərin 18 faizini təşkil edir. Nazir vurğulayıb ki, bu tip hallar çoxdur.



*"Gördüyümüz odur ki, imtahan mərhələsində minimal balı toplayan müəllimlərin yarısından çoxu 25-28 bal toplayıb. Hansısa 2-3 bal həmin müəllimlərin uğur əldə etməsinə mane olub"*

### "Keyfiyyətli müəllim çatışmazlığı kimi problemimiz yoxdur"

Nazir vurğulayıb ki, əvvəlki illərdə MİQ və yerdəyişmə imtahanlarında iştirak edib 30 və daha çox bal toplayanların sertifikasiya nəticələri əhəmiyyətli dərəcədə yüksək olub. O bildirib ki, hər iki nəticə arasında yüksək sayıla biləcək 71 faiz əlaqə mövcuddur: "Sertifikasiyada bu qrup üzrə orta bal 53 olub". Nazir müəllim çatışmazlığı və ya keyfiyyətli müəllim çatışmazlığı kimi problemin olmadığını deyib: "Arxadan gələn müəllimlər daha savadlıdır və onlar üçün yerlərimiz var".

### "Dörd rayon üzrə müəllimlər sertifikasiyada aşağı nəticə göstərib"

Emin Əmrullayev qeyd edib ki, Daşkəsən, Samux, Goranboy və Göygöl üzrə sertifikasiyada iştirak edən müəllimlər daha aşağı nəticə göstərib: "Həmin rayonlar IX sinif buraxılışlarında da ən zəif nəticə göstərən bölgələrdir. Biz burda bir-birimizi günahlandırmamalıyıq. Dəyişikliyin kökü burdadır".

### "2300-dən çox müəllim sertifikasiyadan keçə bilməyib"

Nazir bəyan edib ki, hər il direktor, direktor müavini və müəllimlərin aldıqları əlavələrin yarım milyard manatdan çox olması planlaşdırılır: "İlkin mərhələdə ibtidai sinif müəllimlərinin 98 faizi sertifikasiyada iştirak edib. Onların 78 faizi sertifikasiyanın ilk mərhələsində uğur qazanıb. Sertifikasiyada iştirak edən bəzi müəllimlər yaşla bağlı prosesə qatılmayıblar. 8577 müəllim sertifikasiyanın birinci mərhələsindən uğurla keçib, 2367 müəllimin isə təkmilləşdirməyə ehtiyacı var. Müsahibə mərhələsindən də uğurla keçsələr, 5599 müəllim 10 faiz, 2978 müəllim 35 faiz əlavə alacaq".

### "Bu il 10 mindən artıq vətəndaşın tələbə kreditindən yararlanacağını proqnozlaşdırırıq"

Elm və təhsil naziri deyib ki, son 2 il ərzində təhsil və elm sahəsində dövlət başçısı tərəfindən imzalanmış fərmanların sayını açıqlasa, 10 minlərlə insanın həyatının yaxşılığa doğru necə dəyişdiyinin şahidi olarıq. O bildirib ki, bunlardan biri təhsil kreditlərinin verilməsinə başlanılmasıdır: "Təhsil tələbə kreditlərinin verilməsi uzun illərdir müzakirə olunan məsələ idi və gələcəkdə bu sahədə yeniliklər daha da artacaq. Bu il 10 mindən artıq vətəndaşımızın tələbə kreditindən yararlanacağını proqnozlaşdırırıq. Başqa bir istiqamət Təhsilin İnkişafı Fondunun yaradılması idi. Bu, maliyyə sahəsində çevikliyin təmin olunmasına imkan yaradıb. Biz bu fond vasitəsilə bu ildən müxtəlif böyük layihələrin icrasına başlayacağıq".

### "Bütün yüksək bal toplamaq əzmində olan müəllimlər öncə gələcək"

Nazir vurğulayıb ki, artımlarını erkən almaq istəyən müəllimlərə sertifikasiyada vaxtından əvvəl iştiraka icazə verilməyəcək: "Bu mümkün deyil və bunun üçün Nazirliyə bəlli büdcə planlanması lazımdır. Biz bu prosesi dizayn edəndə könüllü etsəydik, bütün yüksək bal toplamaq əzmində olan müəllimlər öncə gələcəkdi və digər müəllimlər kölgədə qalacaqdı. Ona görə də bu, bəlli bir plan əsasında həyata keçiriləcək. Əvvəl də belə olub. Bildiyiniz kimi, biz diaqnostika imtahanlarını da mərhələli şəkildə etmişdik. Təbii ki, kriteriya olaraq hansı bölgələrdə, hansı məktəblərdə təhsilin daha səmərəli təşkilini görürüksə, orada sertifikasiyanı daha tez etməyə çalışacağıq. Digər tərəfdən, buraxılış fənlərini tədris edən müəllimlərin sertifikasiyasını əvvələ salacağıq".

### "Hansısa 2-3 bal həmin müəllimlərin uğur əldə etməsinə mane olub"

Nazir vurğulayıb ki, sertifikasiyanın II mərhələsində uğur qazanmayan müəllimlərin əmək müqaviləsinə xitam veriləcək: "Yeni tədris ili başlayana qədər müəllimlərin sertifikasiya imtahanının müsahibə mərhələsinin keçirilməsi planlaşdırılır. Artıq müsahibə komissiyaları yaradılıb. Müsahibə bəzi müəllimlərlə ənənəvi, bəziləri ilə isə onlayn formada aparılacaq. Çalışacağıq ki, müəllimlər bu ay əlavələrini ala bilsinlər". Nazir imtahanda bəzi müəllimlərin sözləri səhv yazmaları məsələsinə də aydınlıq gətirib. O qeyd edib ki, bu, hələ ilkin nəticələrdir, niyə baş verməsi araşdırılmalıdır: "Yəqin ki, müxtəlif səbəblər var. Əminəm ki, əsas səbəb imtahanlar ilk dəfə keçirildiyindən yaranan həyəcan olub. Gördüyümüz odur ki, imtahan mərhələsində minimal balı toplayan müəllimlərin yarısından çoxu 25-28 bal toplayıb. Hansısa 2-3 bal həmin müəllimlərin uğur əldə etməsinə mane olub. Əminəm ki, bu, aradan qaldırıla biləcək məsələdir. Bilirik ki, zəif nəticə göstərən müəllimlər üçün növbəti il də sertifikasiya imtahanı keçiriləcək. Onlar üçün təşkil ediləcək təkmilləşdirmə kursları kömək olacaq, həm həyəcanları dəf edə biləcəklər, həm də lazım olan 3-5 balı toplayacaqlar. Müəllim ikinci mərhələdə uğur qazanmasa və üzrsüz səbəbdən iştirak etməsə, onların əmək müqaviləsinə xitam vermək məcburiyyətində qalacağıq. Bu, qanunvericiliyin tələbidir".

### "Mən burada ədalətsiz heç bir şey görmürəm"

Nazir dərs yükünün diaqnostika balına uyğun bölünməsinə münasibət bildirib: "Bəzi məktəblərdə dərs yükünün diaqnostika balına əsasən bölüşdürülməsinin qanuna uyğun olub-olmadığına aydınlıq gətirilib. Müəllimlərin dərs yükünün paylanmasının vahid qaydası yoxdur. Bəzi müəllimlər bu və ya digər səbəbdən öz dərs saatlarını çox götürmək istəməyə bilərlər. Bu, normal prosesdir. O ki qaldı iki müəllimin eyni saatı istəməsinə, bu saatı onlar arasında bölmək bir çox hallarda problem yaradır. Təbii ki, hər şey eynidirsə, bizim söykənəcəyimiz yeganə ədalətli meyar məhz diaqnostika balıdır. Gələcəkdə sertifikasiya balı əsas götürüləcək. Mən burada ədalətsiz heç bir şey görmürəm. Lakin bu meyar qanunidir deyəndə, ən azından qeyri-qanuni də deyil. Burada kiminsə hüququ pozulmur. Məsələn, 10 saat dərs yükü varsa, hansı müəllimin balı çoxdursa, dərs yükünü ona vermək həm pedaqoji, həm də ədalətlilik baxımından doğrudur. Bununla bağlı başqa bir təklif varsa, biz həmin təkliflərə açığıq".

**İsmayıl**

# Bu sahə çox gəlirlidir

## Azərbaycan da hərbi sənaye bazarına daxil olmağı bacardı



**"Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri bir neçə cəhəti ilə xüsusi əhəmiyyət kəsb edir". Bu sözləri millət vəkili Hikmət Babaoğlu deyib.**

Deputat bildirib ki, hər şeydən öncə qeyd etmək lazımdır ki, sərgidə nümayiş etdirdiyi məhsullarla Azərbaycan özünün hərbi sənayeyə malik olan ölkələrdən biri olduğunu bir daha təsdiq etmiş oldu: "Hərbi sənaye olduqca gəlirli sahə hesab edilməsinə baxmayaraq, belə məhsullara aid olan beynəlxalq ticarət konkret dövlətlər və onlara aid şirkətlərin bir növ inhisarında olan sahə hesab edilir. Çünki hərbi sənayenin yaradılması və istehsal edilən məhsulların bazarda rəqabətqabiliyyətli olmasının təmin edilməsi həddindən artıq böyük miqdarda kapital, ciddi intellektual və yaradıcı keyfiyyətlərə sahib mühəndis və kadr potensialı tələb edir. Azərbaycan son illərdə uğurlu və rəqabətqabiliyyətli hərbi sənaye formaşaldırmağı bacarmaqla artıq bu bazara daxil ola bilib. IV Beynəlxalq Müdafiə "ADEX" sərgisində Azərbaycan 21-ci əsrin müharibə standartını yaradan bir ölkə kimi əldə etdiyi tarixi zəfəri təmin edən ən müasir silahları nümayiş etdirdi. Ona görə də Azərbaycan pavilyonu dünyanın 30-dan çox ölkəsindən qatılan 200-dək şirkətin və bütün iştirakçıların diqqət mərkəzində oldu. Bu sərgi həm də Azərbaycanın hərbi sənaye üzrə tərəfdaşları və ortaqlarının uğuru hesab edilə bilər. Çünki Türkiyə, İsrail, Pakistan kimi ölkələrlə Azərbaycanın əməkdaşlığı dost ölkələrlə birlikdə müdafiə qabiliyyətimizin möhkəmlənməsinə xidmət edir. Həm də müdafiə sənayesi məhsulları kimi strateji bir bazarda iştirakçılıq payımızı artırır".

**İsmayıl**

Şəymən Bayramova

# "Məktəbli geyimlərinin keyfiyyəti və qiyməti ilə bağlı iradlar ədalətli deyil"

## Təhsil eksperti: "Formaların hər biri Türkiyə istehsalı olan pambıq parçalarından tikilib"

**Məktəbli geyimləri ilə bağlı narazılıqlar getdikcə artır. Son günlər, hətta son aylardan bəri uzun-uzadı müzakirə olunmasına rəğmən problem hələ də aktual olaraq qalıb. Bir neçə gündən sonra övladını məktəbə yola salmağa hazırlaşan valideynlər məktəb ləvazimatları ilə yanaşı, məktəbli forması da almalıdırlar. Bu il mart ayında Nazirlər Kabineti "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında" qərar qəbul edib.**

Nazirlik "məcbur deyil" desə də, məktəb direktorları valideynlərdən şagirdlərin, xüsusilə, ibtidai sinifdə təhsil alanların yeni məktəbli formasından istifadəsinin məcburi olduğunu bildirirlər.

Valideynlərin əksəriyyəti isə geyimi əldə etməkdə çətinlik çəkir. Kimisi uşaqlarının əyninə uyğun forma tapa bilmir, kimisinin də ildə bir geyim almağa maddi imkanı çatmır.

Bakı Tikiş Evinin qarşısında hər gün saysız növbələr olur. Geyimi əldə edənlər parçanın keyfiyyətindən, tikilişindən narazılıq edir. Baha qiymətə satılmasına baxmayaraq məktəbli geyiminin parçasının keyfiyyətinin çox aşağı olduğunu iddia edirlər.

Maraqlıdır, vahid məktəbli geyimi məsələsi niyə ölkəmizdə ciddi problemə çevrilir? Az qala hər il geyim növü, rəngi dəyişir. Gündə bir tələb qoyulur. Bunun daha asan bir yolu yoxdurmu? Xarici ölkələrin təcrübəsi necədir?

"Yeni məktəbli formaları ilə bağlı cəmiyyətdə hansısa gərginlik var".

Elm və təhsil naziri Emin Əmrullayevin fikrincə isə bütün problemlər bəzən məlumatsızlıq ucbatından, bəzən valideynlərin düz ünvanlara müraciət etməmələri səbəbindən baş verir: "Elm və Təhsil Nazirliyi məktəbli formalarının satışı, tikişi ilə məşğul olan qurum deyil. Biz yalnız həmin formaların nümunəvi tövsiyə olan formada olmasına nəzarət edirik. Burada məcburiyyət yoxdur".

"Əgər məcburiyyət olarsa, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və regional idarələrə müraciət oluna, məsələyə baxıla və ölçü götürülə bilər", - deyə nazir əlavə edib.



*"Sıxlıq probleminə gəldikdə isə bu artıq ənənəvi hal alıb. Valideynlər hər il dərslərin başlamasına 1 həftə qalmış məktəb bazarlığına başlayırlar"*

**Təhsil eksperti Elşən Qafarov "Şərq"ə açıqlamasında deyib ki, inkişaf etmiş bütün dünya ölkələrinin təhsil sistemində vahid məktəbli geyimi mövcuddur.** Onun sözlərinə görə, məktəblərdə sosial bərabərliyin təmin olunması, tərbiyə mühitinin düzgün qurulması üçün çox vacib amillərdən biridir. Məktəbli forması təhsil aldıqları müəssisədə, eyni zamanda ictimai həyatda məktəblilərin öz fəaliyyətlərinə və davranışlarına məsuliyyətlə yanaşmalarında, cəmiyyətdə özlərinə qarşı hörmət və rəğbət hissi oyadılmasında, bütövlükdə məktəbin nüfuzunun artmasında əhəmiyyətli rol oynayır. Buna görə də vahid məktəbli forması məsələsi cəmiyyətdə geniş təbliğ olunmalıdır.

Ölkəmizdə vahid məktəbli geyiminə keçidlə bağlı uzun müddət müzakirə aparılıb. 2010-cu ildən sonra xüsusi qərar olmasa da, bir çox orta ümumtəhsil müəssisələrində Bakı Tikiş Evinin istehsal etdiyi məktəbli geyimlərindən istifadə olunurdu. 2018-ci ildə "Təhsil haqqında" qanuna edilən mühüm dəyişikliklərdən biri də dövlət mülkiyyətində olan orta məktəblərdə təhsilalanların geyim formalarının eskizlərini Nazirlər Kabineti müəyyən edir. Dövlət ümumtəhsil məktəblərində yeni məktəbli geyimlərinin dörd formada eskizləri Nazirlər Kabinetinin 17 mart 2022-ci il tarixli 96 saylı qərarı ilə təsdiq olunub. Sənədə əsasən, hər bir məktəbin pedaqoji şurası əslində göstərilən geyimlərdən birini müəyyənləşdirməlidir. Ancaq keçən müddət ərzində şuralar hansısa bir qərar qəbul edə bilmədilər. Tikiş fabrikləri eskizdəki hansı geyimləri tikəcəklərini və sayının nə qədər olacağı ilə bağlı dəqiq məlumat ala bilmədikləri üçün Bakı Tikiş Evi cəmi 2 növdə, ağ və qara rənglərdə məktəbli geyimini tikib satışa çıxardı. Bu da normaldır, çünki ölkədə 4432 məktəb var. Axı BTE-nin tikəcəyi bu formalar ən azı 6 ay qabaq sifariş verilməlidir".

**E.Qafarovun sözlərinə görə, geyimlərin keyfiyyəti və qiyməti ilə bağlı iradlar ədalətli deyil:** "Formaların hər biri Türkiyə istehsalı olan pambıq parçalarından tikilib. Buna görə də keyfiyyət baxımından bu günə qədər istifadə olunan geyimlərdən fərqləndiyini düşünürəm. Müəyyən olunan qiymətlər isə keyfiyyət və rahatlıq baxımından baha deyil və maddi vəziyyətləri orta səviyyədə olan ailələr üçün ciddi çətinlik yaratmayacaq. Yeni qiymətlərin bugünkü bazar qiymətlərinə uyğun olduğunu düşünürəm. Sıxlıq probleminə gəldikdə isə bu artıq ənənəvi hal alıb. Valideynlər hər il dərslərin başlamasına 1 həftə qalmış məktəb bazarlığına başlayırlar. Düşünürəm ki, qısa müddətdə yaranmış problem aradan qalxacaq və hər şagird məktəbli forması ilə təmin ediləcək".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**





# Ağalı kəndinin sakinləri yurdlarına dönür

## Əhalinin ehtiyaclarının detallarınadək nəzərə alınması köçürülmə prosesini asanlaşdırır

**"Böyük Qayıdış" dövlət proqramı çərçivəsində Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsi davam edir. Dünən Abşeron rayonunun Masazır kəndindəki "Zəngilan" şəhərciyindən növbəti köç karvanı yola salınıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, otuz ilə yaxın yurd həsrəti ilə yaşayan daha 63 nəfər - 12 ailə yeni salınmış və ən müasir infrastrukturu olan kənddə onlara verilmiş evlərdə daimi məskunlaşacaqlar.**

Köçürülən ailələr, əsasən, müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin hər birinin sakinləri vardır. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər. Ağalı kəndinə köçürülmə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə yeni yaşayış sahələrinin təqdim olunması cədvəli əsasında, ardıcıl şəkildə davam etdiriləcəkdir. Xatırladaq ki, Azərbaycan Ordusunun işğaldan azad etdiyi Zəngilanın Ağalı kəndinə məcburi köçkünlərin ilk qrupunun köçürülməsinə iyul ayında başlandı. Bildirildi ki, proses 4 mərhələdə həyata keçiriləcək. Prosesin birinci mərhələsində 40-dan çox ailə, sonrakı mərhələlərdə də ailələr hissə-hissə köçürüləcək. Köçürülənlər arasında ortayaşlı sakinlər üstünlük təşkil edir. Vətəndaşların məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən təmin olunacaq. Kənddə reallaşdırılan layihənin icrası - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri üzrə həyata keçirilib. Ağalıda inşa olunan 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə ediləcək. Kənddə DOST Agentliyinin "Şərqi Zəngəzur və Qarabağ" proqramı çərçivəsində "Smart DOST" xidmət məntəqəsi də fəaliyyətə başlayacaq. Ağalıda "Dost Aqropark" fəaliyyət göstərəcək. Kənddə sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Ağalı kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalan əzəli torpaqlarda sülhün əbədi gerçəkləşdirilməsini təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi ucaldılıb. Qəsəbədə, eyni zamanda, "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" və DOST, həmçinin Kiçik və Orta Biznesin İnkişafı mərkəzləri təsis olunub. Beləliklə, sakinlərin dövlət xidmətlərinə rahat çıxışı gerçəkləşib, onların "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacaq. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Vətəndaş tərəfindən birbaşa videobağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət olunacaq. Kənddə müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, Günəş panellərinin quraşdırılması kimi amillər yüksək səviyyədə reallaşdırılıb. Bütün bunlarla bərabər, kənddə "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və orta məktəb inşa edilib. Ağalıya köçürülən ailələr tibbi müayinələrdən də keçirilir. Ağalıda aqrar sektorun inkişafına xüsusi önəm verilib. Kəndin kənarında yerləşən böyük əkin sahəsində pilot sistemlər quraşdırılıb. Bu sistemlərlə 157 hektar sahənin suvarılması nəzərdə tutulub. Eyni zamanda, kənd ərazisində iqlim stansiyalarının da tikilməsi planlaşdırılıb. Bununla yanaşı, kənddə yeni intensiv bağlar salınmasına, bağçılığın sürətli inkişafı üçün layihələrin həyata keçirilməsinə başlanıb. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli binaların inşası da nəzərdə tutulur.

**Ağalı kəndinin sakinlərinin 30 ildən sonra doğma yurdlarına qayıtmasının izahedilməz sevinc və qürur hissi yaşatdığını deyən Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədova "Şərq"ə açıqlamasında qeyd etdi ki, "Böyük Qayıdış"a şahidlik etdiyi üçün özünü xoşbəxt sayır:**

*"Əsas məsələlərdən biri də doğma yurduna qayıdan əhalinin işsizlik probleminin həll olunması, gəlirlərinin təmin edilməsidir, bu da var. Kənddə tikiş fabriki tikilib, əkin sahələri yaradılıb, əhali təsərrüfatla, əkinçiliklə məşğul olacaq"*

- Bilirsiniz ki, mən Xankəndi Pedaqoji İnstitutunu bitirmişəm və 10 il bu şəhərdə müəllim işləmişəm. Ermənilərin riyakarlığını, nankorluğunu, Azərbaycana, azərbaycanlılara qarşı nifrətlərini də, siyasi avantüralarını da görmüşəm. Lakin bunu deməyi özümə borc bilirəm ki, ulu öndər Heydər Əliyev nə qədər ki, Azərbaycanın siyasi rəhbərliyində idi, ermənilər Qarabağa iddialarını açıq səsləndirməyə çəkinirdilər. Onlar yalnız SSRİ-də siyasi təlatümlər, idarəetmədə dəyişikliklər və Azərbaycanda da siyasi rəhbərlik dəyişəndən sonra cürətlənib Qarabağa iddia etməyə, özünküləşdirməyə başladılar. Sonrakı hadisələr, işğal faktoru hamıya məlumdur. Lakin Azərbaycan xalqı Vətən torpağının müqəddəsliyini dünyaya sübut etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ordumuz, cəsur oğullarımız, qəhrəman əsgərlərimiz işğal altındakı torpaqlarımızı azad etdilər. "Böyük Qayıdış" layihəsi də belə yarandı. Təbii ki, bütün məcburi köçkünlər doğma yurd-yuvalarına qayıtmaq həsrətiylə yaşayırdı. Lakin onların doğma yurdlarına qayıtması üçün şərait yaradılması da şərt idi. Cənab Prezident İlham Əliyev "Böyük Qayıdış" proqramını təsdiq etdi, "Ağıllı kənd" , "Ağıllı şəhər" layihələri də belə yarandı. Müasir dünyanın tələbləri ilə ayaqlaşmalıyıq. İndi 20-ci əsrin nə əvvəlləri, nə də sonlarıdır. Artıq 21-əsrin 2-ci onilliyindəyik. Odur ki, yeni yaşayış məskənləri, kəndlər, şəhərlər müasir dünya çağırışlarına uyğun olmalıdır. Zəngilanın Ağalı kəndinin sakinlərinin köçürülməsi davam edir. Biz görürük ki, dövlət tərəfindən orada necə müasir evlər tikilib, qəsəbələr salınıb. Hər şey nəzərə alınıb: internet imkanlarından tutmuş, dövlət orqanları ilə vətəndaşların əlaqəsinədək. Ağalı sakinlərinin hər hansı sənəd üçün, hər hansı məsələ ilə bağlı rayon mərkəzinə, yaxud, əvvəllər olduğu kimi paytaxta üz tutmasına ehtiyac qalmayacaq. Orda "Dost" Mərkəzi də fəaliyyət göstərəcək, "ASAN Xidmət" də. Əsas məsələlərdən biri də doğma yurduna qayıdan əhalinin işsizlik probleminin həll olunması, gəlirlərinin təmin edilməsidir, bu da var. Kənddə tikiş fabriki tikilib, əkin sahələri yaradılıb, əhali təsərrüfatla, əkinçiliklə məşğul olacaq. Əhalinin ehtiyaclarının detallarınadək nəzərə alınması köçürülmə prosesini asanlaşdırır. Mən əminəm ki, işğaldan azad edilmiş digər ərazilərimizə əziz insanlarımızın qayıdışı da uğurla həyata keçiriləcək, Qarabağımız yenə gül-çiçəyə bürünəcək, doğma insanların nəfəsi ilə isinəcək.

*Qeyd edək ki, Ağalı kəndinə qayıdanlar öz sevinclərini bölüşüb, doğma yurda qayıtdıqları üçün çox sevincli olduqlarını, bu sevinci onlara yaşatdığına görə Ali Baş Komandan cənab İlham Əliyevə, şəhid analarına, şəhid atalarına, Azərbaycan Ordusuna minnətdarlıqlarını ifadə ediblər.*

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Paşinyanın başqa yolu qalmayıb

## "İlin sonuna kimi proses sonlanmalıdır"



**"Nikol Paşinyanın bütün açıqlamaları Bakı küləyinə oxşayır. Gah xəzridir, gah gilavardır. Gah Azərbaycanı "əsir-kəsir", gah Azərbaycana yalvarır, gah da ki, şirin sözlər deyir. Adam siyasətçi olmadığına görə gündə bir istiqamətə "əsir". Bu, erməni xisləti ilə əlaqəlidir".**

*Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Cümşüd Nuriyev Ermənistanın Baş naziri N.Paşinyanın "Ermənistan Azərbaycanla sərhədlərin açılmasında maraqlıdır" fikirlərinə münasibət bildirərkən deyib.*

Onun qənaətincə, N.Paşinyan sərsəm fikirlər səsləndirir: "Moskvaya gedib deyir ki, Rusiya Türkiyə ilə əlaqələrimizi yaxşılaşdıracaq. Hələ bu azmış kimi Rusiyanı bölgədə təhlükəsizliyin qarantı adlandırır.

Bir adamın əməli ilə dediyi söz üst-üstə düşmürsə, ya siyasətçi deyil, ya da riyakardır. Paşinyanda hər ikisi var. O, ən güclü riyakar siyasəti bilməyənlərdən biridir. Neyləyək, düşmən dövlətin rəhbəridir...

Özü Moskvada etiraf etmişdi ki, "bizə Qərb yönümlü deyirlər, amma biz elə deyilik". Paşinyan Qərb və Rusiya ilə eyni kürsüdə oturmaq istəyir. Balanslaşdırılmış siyasət yürütməkdən ötrü təcrübəli və yaxud iradəli olmalısan. Bunun heç biri Paşinyanda yoxdur. Proses hələ uzanacaq. Lakin Paşinyanın başqa yolu qalmayıb, ilin sonuna kimi proses sonlanmalıdır".

**Politoloqun fikrincə, Avropa İttifaqı ilə məsələlər gündəmə gəldiyinə görə ermənilərin son sayıqlamaları kimi qəbul etmək mümkündür:**

"Axşam "hə", sabah "yox" deyir. Qeyri-ciddi gedişdir. Paşinyanın günahı ilə bərabər günahsızlığı da var. Bölgədə Rusiya öz maraqlarını qoruyub saxlamağa çalışır. ABŞ öz maraqlarını dayanıqlı etməyə səy göstərir. Vəziyyəti qarışdıran İrandır. Rəsmi Tehranın davranışı Azərbaycanın maraqlarına uyğun deyil. Onun əsas hədəfi narkotik maddələr satıb Azərbaycan gəncliyini məhv etmək, Ermənistan üzərindən də narkotrafiki həyata keçirtməkdir. İran bu niyyətini gizlədir. Amma müxalifətçilərinin Avropaya yaydığı məlumatlarda göstərilir ki, cənub qonşumuz hər il Azərbaycan və Ermənistan üzərindən 5-7 milyard dollarlıq narkotrafiklə məşğuldur. Ölkəmizdə hər gün həbslər olur. Lakin kökü kəsilməyib".

**Aygün Tahir**



# Avropanı nə qaz, nə neft, nə kömür, nə də dizellə təmin edəcəyik

## Rusiya neft və qazla Avropanı təhdid edir

**"Rusiya təbii qaz bazarlarını aktiv şəkildə manipulyasiya edir".**

"Şərq" xəbər verir ki, bunu Avropa İttifaqı (Aİ) Komissiyasının sədri Ursula fon der Leyen deyib.

Leyen bildirib ki, elektrik enerjisinin ən sıx istifadə edildiyi zaman istehlakı azaltmaq üçün hədəf təyin etməyi təklif edəcəklər: "Az xərclə elektrik enerjisi istehsal edən şirkətlərin gəlirləri üçün bir tavan təklif edəcəyik".

Aİ Komissiyasının sədri Ursula fon der Leyen də Rusiya qazı üçün tavan qiyməti təklif edəcəklərini bildirib.

Leyenin açıqlamalarından bir neçə saat əvvəl Şərq İqtisadi Forumunda çıxış edən Rusiya Prezidenti Vladimir Putin Aİ-nin Rusiya qazı və neftinin qiymətinə yuxarı hədd təyin etməsini "axmaqlıq" adlandırıb. Rusiyanın enerji təchizatını kəsə biləcəyinə işarə edib: "...Bu, sadəcə olaraq, növbəti axmaqlıqdır, bazar üçün yararsızdır. Çünki ticarətə qoyulan hər hansı məhdudiyyət yalnız qiymət artımına səbəb olacaq.

Biz enerji müqavilələri üzrə öhdəliklərimizi tam yerinə yetirəcəyik, amma deməliyəm ki, kimsə bizə nəyisə sırımağa çalışırsa, bu gün öz iradəsini bizim üzərimizə yükləmək iqtidarında deyil. Özlərinə gəlsinlər. Müqavilələrdə müəyyən öhdəliklər var, lakin qeyd olunan müqavilələrə zidd siyasi qərarlar verilərsə, biz bu müqavilələrin şərtlərini yerinə yetirməyəcəyik. Əgər bizim maraqlarımıza uyğun gəlmirsə, heç nə təmin etməyəcəyik. Nə qaz, nə neft, nə kömür, nə dizel".

Kreml artıq elan edib ki, rəsmi Moskvaya qarşı sanksiyalar ləğv olunmasa, Rusiyanın "Şimal axını-1" boru kəməri ilə Avropaya qaz nəqli tam davam etməyəcək.

**Aygün**

# Ukraynanın qələbəsi asan başa gəlməyəcək

## Dünyanı daha ağır və çətin proseslər gözləyir



**"Son günlər Ukrayna ordusunun əkshəmlə əməliyyatları çox uğurla başa çatıb". Bu barədə politoloq Rusif Məmmədsoy "Şərq"ə açıqlamasında bildirib.**

O qeyd edib ki, Xersonda Rusiya tərəfi artıq növbəti dəfə referendum qərarını ertələmək məcburiyyətində qalıb: "Təxirəsalma Ukrayna ordusunun xüsusilə Xerson istiqamətində əldə etdiyi nailiyyətlər səbəbindəndir.

Eyni zamanda Xersonun həm Ukrayna, həm də Rusiya üçün olduqca strateji bir məntəqə olduğunu qeyd etmək lazımdır. Nəzərə alsaq ki, Krıma gedən quru yol məhz həmin ərazidən keçir, rəsmi Kiyevin əsas hədəfinin sözügedən vilayətə yönəlməsi təsadüfi deyil.

Volodimir Zelenskinin son açıqlamaları da ukraynanlıların Krıma, Donbassa qayıdacağı ilə bağlı idi. Bu, Zelenskinin Krımla bağlı iddialarından əl çəkmədiyini göstərir. Əslində vaz keçə də bilməz. Bu gün Ukraynada prezidentin kimliyindən asılı olmayaraq, ictimai rəy ancaq qələbəyə kilidlənib. Krım, Donbass və ya digər ərazilərin işğal altında qalması ilə heç kim razılaşmayacaq.

Ona görə də siyasi rəhbərlik bununla hesablaşmaq məcburiyyətindədir. Xerson istiqamətində əldə olunan uğur, azad edilən bir sıra kəndlərdə Ukrayna bayrağının sancılması rus ordusuna psixoloji təzyiqdir. Həmçinin Rusiyanın siyasi elitasında müəyyən çaxnaşma yaradacaq amillərdən biridir. Vladimir Putinin Sergey Şoyqu ilə də bağlı müəyyən narahatlığı var.

Aldığımız məlumatlara görə, S.Şoyqu hətta komandanlıqdan uzaqlaşdırılıb və orduya şəxsən V.Putin özü nəzarət edir.

Amma reallıq ondan ibarətdir ki, bu gün keçmiş sovet silahları Qərbin müasir silahsursatı ilə rəqabət apara bilməz. Hava üstünlüyü Rusiya tərəfində ola bilər.

Amma istənilən halda rəsmi Kiyev günbəgün yaxşı nəticələr qazanır. Ümid edirik ki, bu savaşdan da qalib ölkə kimi məhz Ukrayna çıxacaq. Çünki onlar sadəcə ukraynalılar deyil, keçmiş postsovet ölkələri, Qarabağ, eyni zamanda bütün dünya üçün döyüşür desək, yanılmarıq.

Bununla yanaşı iqtisadi zəmində baş verən aksiyalar, Çexiyadakı mitinq, Almaniyadakı lokal etiraz nümayişi Ukraynanın öz amalından geri dönəcəyi anlamına gəlmir.

Bunlar sadəcə təfərrüatdır. Hətta keçirilən aksiyalar elə bir detaldır ki, ənənəvi qərb cəmiyyətlərini təzahür etdirir. Yəni ciddi pessimizmə qapılmağa da ehtiyac yoxdur.

Artıq Ukrayna tərəfinin əsgər heyətinin sayı bir milyona yaxınlaşır. Bu, çox ciddi rəqəmdir. Onların peşəkarlığının yüksəlişinin göstəricisidir.

Qərb ölkələrindən Böyük Britaniya bu məsələlərdə olduqca aktiv idi. Nəticə etibarilə Ukraynanın qalibiyyəti əslində Putin hakimiyyətinin sonudur. Ona görə də bu qələbə heç də asan başa gəlməcəyək. Dünyanı daha ağır və çətin proseslər gözləyir".

**Sücayət Mehti**

# Müəllimlər blogerlik eşqinə düşüblər

## Elmin Nuri: “Biri saçını darayıb videoya çəkir, başqa birisi şagirdlərlə velosiped sürür və bunu fərqli metod hesab edir”



**”469 müəllim sertifikasiyada ”anbar”, ”şənbə” və ”pambıq” sözləri verilmiş test tapşırığında sözün düzgün yazılışını tapa bilməyib. Bu, sertifikasiyada iştirak edənlərin 18 faizini təşkil edir”. Bu barədə Elm və Təhsil naziri Emin Əmrullayev Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransındakı çıxışında deyib.**

Vəziyyət gerçəkdən acınacaqlıdır. Savadsız müəllimlərin çoxluğu gələcəkdə ağır fəsadlar verə bilər. Bəs, yaranmış durumun kökünü harda axtarmalıyıq. Təhsilimiz hara gedir? Sualar çoxdur, cavablar axtarmağa çalışdıq.

**AzEdu.az Təhsil Portalının baş redaktoru Elmin Nuri də ”Şərq”ə təsdiqləyir ki, bu gün ibtidai təhsil sistemində pedaqoji hazırlığı, intellektual səviyyəsi həddindən artıq zəif olan müəllimlər var. Onun sözlərinə görə, məsələnin kökünü kollecə bağlamaq da düzgün sayılmaz:**

”Ötən gün saytımızda bir müsahibə yayımlanıb. İbtidai müəllimlərin sertifikasiyasında ölkə üzrə rekord nəticəni göstərənlərdən biri Qusar rayonunun kənd müəllimi Səidə xanım olub.

***"Sosial şəbəkələrdə də həmin müəllimlər qəhrəman kimi qələmə verilir"***

O, kollec məzunudur, amma maksimum bal toplayıb. Lakin bu hal istisnadır. Əminliklə demək olar ki, zəif nəticə göstərənlərin əksəriyyəti kolleclərdə təhsil alan müəllimlərdir. Amma bu, universiteti bitirən ibtidai sinif müəllimlərinin də sayının az olduğu anlamına gəlmir.

Bu gün ali təhsil ocaqlarımız da ibtidai təhsil vermək baxımından xeyli yadırğayırlar. Yaxşıların haqqına girməyək. Tanıdığımız sinif müəllimləri var ki, Amerikadan, İsraildən, başda Sinqapur olmaqla Uzaq Şərq ölkələrindən, Avropadan xüsusi proqramlar öyrənirlər. Həmin layihələrdən sertifikatları alırlar.

Öyrəndiklərini Azərbaycan təhsilində tətbiq edirlər. Amma istisnalara baxıb, özümüzü aldatmamalıyıq. Reallıqla barışmalıyıq. İbtidai sinif müəllimlərimizin əksəriyyəti istər pedaqoji, istərsə də metodiki cəhətdən hələ ki axsayırlar. Müəllimlər arasında maraqlı bir tendensiya yaranır. Hər biri sanki blogerlik eşqinə düşüblər. Xarici müəllimləri yamsılamağa çalışırlar.

Biri saçını darayıb videoya çəkir, başqa birisi şagirdlərlə velosiped sürür və bunu fərqli metod hesab edir. Digərləri də bu hərəkətləri təqlid etməyə başlayırlar. Sosial şəbəkələrdə də həmin müəllimlər qəhrəman kimi qələmə verilir.

Başqa ibtidai sinif müəllimləri də özlərini intellektual, pedaqoji baxımdan yetişdirmək, inkişaf etdirmək əvəzinə eyni davranışları təkrarlayırlar. Zəif nəticə əldə edənlərin səbəbinin həmin müəllimlər olduğunu demək doğru deyil. Sadəcə pedaqoji heyət lazım olan məsələlərin arxasınca getmir”.

**Sücayət Mehti**



## Firəngiz Rəhimbəyova ABŞ-da dəfn olunub

**Azərbaycanlı estrada müğənnisi, aktrisa Firəngiz Rəhimbəyova ABŞ-nin Kaliforniya ştatının Los-Anceles şəhərində dəfn olunub.**

APA xəbər verir ki, əvvəlcə sənətçi ilə vida mərasimi keçirilib, ardından torpağa tapşırılıb.

Mərasimdə Firəngiz Rəhimbəyovanın ailə üzvləri və sevənləri ilə yanaşı, Azərbaycanın Los-Ancelesdəki konsulluğunun nümayəndələri də iştirak edib.

*Qeyd edək ki, Firəngiz Rəhimbəyova avqustun 16-da vəfat edib. Bir sıra filmlərdə də rol alan sənətçi daha çox ”Bəxt üzüyü” filmindəki Sevda obrazı ilə yadda qalıb. O, 1999-cu ildə amerikalı arxitektor Raymond Antoni ilə ailə həyatı qurduqdan sonra Los-Anceles şəhərinə köçüb və orada yaşayıb.*

## "Gördük ki, alınmır ayrılmağa qərar verdik"

Şəhriyar Oksana ilə boşanmalarına ilk dəfə reaksiya verib



**Xəbər verdiyimiz kimi, rəqqasə-aktrisa Oksana Rəsulova aparıcı Şəhriyar Əbilovla ayrıldığını açıqlayıb.**

Məsələ ilə bağlı Şəhriyyar Axşam.az-a açıqlama verib. O bildirib ki, ailə münasibətlərini saxlamağa çalışsalar da alınmayıb:

”Bəzi şeyləri yaşamadan bilmirsən. Burada hiss, harmoniya var... Oksananın dediklərinin arxasındayam. İndi də övladımız üçün münasibətimizi davam etdiririk. Biz əvvəlki kimi dostuq”.

Şəhriyar ”Açıqlamada yer alıb ki, ayrılıq bir il əvvəl olub. Deməli, siz münasibətinizi açıqlayanda artıq ayrılmışdınız” sualına belə cavab verib:

”Biz bir neçə dəfə buna cəhd etdik. Sonra gördük ki, alınmır və ayrılmağa qərar verdik”.

*Qeyd edək ki, cütlük ötən il evli olduğunu açıqlamışdı. Oksana daha əvvəl ailəli olsa da, bu, Şəhriyarın ilk nikahı idi. Oksana övladı Osmanın atasının da Şəhriyar olduğunu açıqlayıb.*



## Sentyabrda tələbat artıb

Kirayə evlərin qiyməti 500 manatdan təklif olunur

**”Bakının kirayə mənzil bazarındakı vəziyyətə klasifikasiya qaydasında baxmaq lazımdır”.**

**”Şərq” xəbər verir ki, bu barədə iqtisadçı Fuad İbrahimov bildirib. Onun sözlərinə görə, hazırda tələbdən çox təklif var:** ”Nəticədə rəqabət mühiti formalaşır. Yeni mənzil sahibləri bu gün öz evlərini bazara çıxarırlar. Böyük rəqabətlə üzləşirlər. Tələbələrə gəlincə isə hazırda sıxlıq müşahidə edilir. Çünki onlar qrup şəklində ucuz ev axtarışındadırlar. Belə olan halda qiymətlər artır.

Məsələn, avqust ayında tələb az idi deyə çox ucuz təkliflər var idi. İndi isə hiss olunur ki, qiymətlər cədvəlində yüksəliş mövcuddur. Artıq ev sahibləri də klassik nəzəriyyənin tələblərinə uyğun, tələb və təklif arasında fərqi öz xeyirlərinə dəyərləndirirlər. Amma digər sahə üzrə daha bahalı mənzillərin verilməsində təklif daha çoxdur, nəinki tələb. Yeni tikili binalardakı kirayə evlərə isə daha çox gənc ailələr, qısamüddətli yaşamaq üçün gələn qonaqlar müraciət edirlər. Nəzərə almaq lazımdır ki, quru sərhədlər də bağlıdır. Gələn turistlərin sayı arzuolunan səviyyədə deyil. Köhnə tikili binalarda ən ucuz - bir otaqlı mənzilin kirayəsi 150 manat, iki-üç otaqlıların isə ən bahalısı 400-500 AZN təşkil edir. Lakin yeni tikililərdə qiymət diapazonu daha yüksəkdir. 450-500-dən yuxarı kirayə evlər mövcuddur”.

**Sücayət Mehti**

# Əcnəbi tələbələr ADU-ya böyük maraq göstərir

## Firuzə Rzayeva: “Magistratura səviyyəsi üzrə yeni ixtisaslara qəbul 100 faiz təşkil edib”

**2022-2023-cü tədris ilində Azərbaycan Dillər Universitetinin (ADU) magistratura səviyyəsindəki yeni ixtisaslara qəbul 100 faiz təşkil edib. Universitetin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ADU-nun magistratura şöbəsinin müdiri, dosent Firuzə Rzayeva bildirib ki, təqdim olunan yeni ixtisaslar Məktəbəqədər təlim və tərbiyənin metodikası və metodologiyası, İbtidai sinifdə tədrisin metodikası və metodologiyası, Korreksiyaedici təlimin metodikası və metodologiyası ixtisaslarıdır:**

”Azərbaycan Dillər Universitetini seçən, magistr adını qazanan bütün tələbələri ürəkdən təbrik edir, onlara yeni-yeni nailiyyətlər, gələcək karyeralarında uğurlar arzu edirəm. Universitetimiz əmək bazarındakı dayanıqlığın təmin olunması istiqamətində daim zəruri addımlar atır. Hər tədris ilində dövrün tələblərinə uyğun yeni və müasir ixtisaslar tələbələrin seçiminə verilir. Təqdim olunan ixtisaslar üzrə tədris planlarının mükəmməl tərtib edilməsi peşəkar kadr hazırlığı, inklüziv təhsil üzrə peşəkar təlimlərin təşkili, sinxron tərcüməçilərin hazırlanması, filoloq, metodist, diplomat və beynəlxalq səviyyəli jurnalist hazırlığı, regionlar üzrə mərkəzlərdə təlimlərin təşkili, yüksək bilik və bacarıqlı akademik və professor heyətinin ustad dərsləri ADU məzunlarına ixtisasları üzrə işlə təmin olunmağa öz töhfəsini verməkdədir”.



**Dosent Firuzə Rzayeva əlavə edib ki, həmişə olduğu kimi əcnəbi tələbələr ADU-da magistr səviyyəsi üzrə təhsil almağa böyük maraq göstərirlər:** ”Belə ki, müxtəlif ixtisaslar üzrə Türkiyə, Fransa, İtaliya, Serbiya, Rumıniya, Polşa, Macarıstan və s. kimi ölkələrdə ERASMUS + çərçivəsində təhsil, ikili diplom, tələbə mobilliyi, təcrübə proqramları, təlimlər tələbə və müəllim heyətini daha da ruhlandırır. Azərbaycan Dillər Universitetinin kollektivi olaraq bundan sonra da əzmlə işləyəcək və gənclərimizin seçdikləri ixtisaslar üzrə biliklərini daha da təkmilləşdirmələri üçün əlimizdən gələni əsirgəməyəcəyik”.

**Aygün**

Elan

Dövlət Sosial Fondu tərəfindən Həsənov Şakir Vərəhməd oğluna verilmiş İmişli şəhəri, 28 may küç., ev 211-ə məxsus evin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

# Ukrayna müharibəsi İT mütəxəssislərini perik salıb

## Rusiyadan miqrasiya edən mütəxəssislər və şirkətlər əsasən Özbəkistan, Gürcüstan, Qazaxıstan və Ermənistan bazarlarına üz tutdular. Relokasiya proseslərində Azərbaycan yer almayıb

**”Rusiyanın Ukraynaya təcavüzündən sonra bu ölkəyə tətbiq edilən sanksiyalar səbəbindən İKT sektorunu böhran bürüyüb. Xarici İT şirkətlərin böyük əksəriyyəti Rusiyanı tərk etdi. Rusiyanın işsiz qalan yüz minlərlə İT mütəxəssisinin kütləvi relokasiya prosesləri başlayıb”. Bu sözləri Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.**



***"Yaxın perspektivdə bədnam qonşumuzda yeni mühit formalaşacaq, hansı ki, bizim milli maraqlarımıza heç də uyğun olmayan bir mühitdən söhbət gedir"***

Rusiyadan baş götürüb gedən İT mütəxəssis və şirkətləri, xüsusən də proqramaçılar Ermənistana relokasiya edibmiş. Söhbət təxminən 50 000 İT mütəxəssisdən gedir.

Ermənistanın İqtisadiyyat naziri Vaan Kerobyanın açıqlamasına görə, Rusiyadan son zamanlarda yalnız İT mütəxəssislər deyil, 20 -dən çox İT şirkət Ermənistanda qeydiyyatdan keçib: ”Həmçinin hazırda Ermənistanda vergi ödəyicisi olaraq 850 Rusiya şirkətinin və 350 fərdi sahibkarın fəaliyyət göstərdiyini, 40 minədək hüquqi və fiziki şəxsin Ermənistan banklarında hesab açdığını bildirib.

Xatırlayıram ki, bir neçə gün öncə Rusiya bazarından çıxan tanınmış Amerika şirkəti NVİDİA da İrəvanda ofis açdı.

Bir müddət öncə ”Yandex” də İrəvanda 1000 nəfəri işə cəlb etməklə ofis açmışdı.

Beləliklə, Rusiyanın Ukraynaya təcavüzündən sonra Rusiya İT mütəxəssislərin və şirkətlərin relokasiya prosesinin əsas mərhələsinin başa çatdığını düşünmək olar.

Müşahidələr göstərir ki, müharibə başlayandan sonra Rusiyadan miqrasiya edən mütəxəssislər və şirkətlər əsasən Özbəkistan, Gürcüstan, Qazaxıstan və Ermənistan bazarlarına üz tutdular.

Relokasiya proseslərində Azərbaycan yer almayıb. Bildiyim qədər bəzi dövlət qurumları bu istiqamətdə Rusiya şirkətləri, İT komandalarla danışıqlar aparsa da, biznes mühitinin cəlbedici olmaması baxımından uğurlu yekunlaşmayıb.

Azərbaycana Rusiyadan və Ukraynadan yalnız məhdud sayda mütəxəssislərin və ailələrin gəldiyi bildirilir.

Düşünürəm ki, on minlərlə İT mütəxəssislərin, İT şirkətlərin, eyni zamanda xarici ölkələrin İT şirkətlərinin bir anda Ermənistan bazarlarında yer alması və möhkəmlənməsi bizim üçün çox düşündürücü olmalıdır”.

Ekspertin fikrincə, yaxın perspektivdə bədnam qonşumuzda yeni mühit formalaşacaq, hansı ki, bizim milli maraqlarımıza heç də uyğun olmayan bir mühitdən söhbət gedir. Adi hesablamalarla proqnozlaşdırmaq olar ki, düşmən ölkə yaxın bir neçə ilə nələr əldə edə bilər:

”Bu məsələ bizim üçün yalnız iqtisadi məsələ olmamalıdır, bu, daha çox milli təhlükəsizlik məsələsidir”.

**Şəymən**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2551

ŞƏRQ 8 sentyabr 2022-ci il № 160 (5682) (cümə axşamı) Son səhifə



## Yemlədi, əzizlədi və tapşırıq verdi

Nəsli kəsilməkdə olan şahin quşu Putinin qoluna qonub

**Rusiya Prezidenti Vladimir Putin nəsli kəsilməkdə olan şahin quşunu bəsləyib. ”NTV.com.tr”də yer alan məluamata görə, Rusiyanın Vladivostok şəhərində keçiriləcək ”Vostok-2022” hərbi təlimlərinə qatılmaq üçün Uzaq Şərqə səfər edib.**

Vladivostok yolunda V.Putin öncə Kamçatkaya gedib. Və burada Böyük Yırtıcı Quş Növlərinin Çoxaldılması və Qorunması Beynəlxalq Mərkəzini ziyarət edib. Ziyarət zamanı Putinə nəsli kəsilməkdə olan, adı ”Qırmızı Kitab”a daxil edilmiş ağ ”Gyrfalcon” növü şahinlə maraqlanıb. Putin bu quşun nəslinin artırılması üçün lazımi tədbirlərin görülməsini tapşırıb. Mərkəzin bu istiqamətdə apardığı işlərlə tanış olub. Bu əsnada başqa bir şahin qanad açaraq Putinin qoluna taxılmış qoruyucunun üzərinə qonub. Putin şahini bəsləyib, yem verib. Şahin yemləndikdən sonra təkrar baxıcının yanına uçub. Ziyarət zamanı V.Putin ekologiya könüllüləriylə görüşüb, onlarla ekologiyanın, nadir heyvan növlərinin qorunmasının vacibliyi haqda söhbət edib.

**Məlahət**

## Heyvansevərlər hiddətləndi

İti motosikletə bağlayıb ardınca sürüyən adam saxlanılıb



**İstanbulun Arnavutköy ərazisində bir nəfərin iti motosikletə bağlayaraq ardınca sürüməsini əks etdirən video heyvansevərlərin böyük təpkisinə səbəb olub. ”NTV.com.tr” xəbər verir ki, polisə müraciət edildikdən sonra motosiklet sahibi yolda saxlanıb.**

Polis tərəfindən saxlanan sürücü deyib ki, iti küçədə tapdığını, sahibsiz olduğunu görüncə, onu özüylə aparıb işlədiyi fabrikin bağçasında saxlamaq istəyib. Amma iti daşımaq çətin olduğundan onu motosikletin arxasına bağlayıb. Sürücü qısa məsafə qət edəcəklərini desə də çəkilən videoda motosikletin uzaq məsafəyə getdiyi, bağlı itinsə məcburən motosikletin ardınca qaçmalı olduğu görünür. Məhz bu görüntü heyvansevərlərin böyük təpkisiylə üzləşib. Hansı məqsədlə olursa-olsun heyvanlara bu şəkildə əziyyət verilməsinin qəbuledilməz olduğunu bildiriblər. Polisin müdaxiləsindən sonra it bir avtomobilə qoyularaq fabrikin bağçasına aparılıb.

**Məlahət**

## Milyarderin qaçırılan nəvəsinin meyiti tapıldı

Polis artıq şübhəlini həbs edib



**ABŞ-ın ən böyük topdansatış distribütorlarından biri olan ”Orgill”in sahibi, milyarder Cozef Orgillin qaçırılan nəvəsi Eliza Fletçerin meyiti tapılıb.**

**Uşaq bağçasında müəllim olan və sadə həyat tərzi sürən 34 yaşlı Eliza günorta saatlarında idman məqsədi ilə qaçış zamanı oğurlanmışdı. Müşahidə kameralarının görüntülərindən aydın olub ki, küçələrin birində qara yolsuzluq avtomobili qadının yanında saxlanılır, sonra maşından düşən bir kişi onu zorla maşına salır.**

**Hadisə yerində Fletçerin cib telefonu və 38 yaşlı afroamerikalı Kleota Abstonun başmaqları olub.**

**Polis artıq şübhəlini həbs edib. Onu birinci dərəcəli qətlə görə mühakimə gözləyir.**

## “Həyatımın hər saniyəsi dəyişdi"

Amerikalı aktrisa oğul anası olduğunu bildirib



**Amerikalı aktrisa Cennifer Lourens ”Vogue” jurnalının oktyabr sayının üz qabığnda yer alıb.**

**Qafqazinfo xəbər verir ki, fevral ayında ana olan 32 yaşlı ulduz ilk dəfə oğlunun cinsiyyətini açıqlayıb. O, oğul anası olduğunu bildirib.**

**”Bütün həyatım, onun hər saniyəsi dəyişdi”, - analıq hissi haqda danışan aktrisa deyib.**

**Uşağın adı amerikalı rəssam Say Tvomblinin şərəfinə verilib. Belə ki, həmin rəssamın işləri körpənin atası Kuk Maroninin çox xoşuna gəlir. Maroni sənətşünas və qalereyaçıdır.**

**Qeyd edək ki, Kukla Cennifer 2018-ci ildən birlikdədir. Cütlüyün toyu 2019-cu ildə olub.**

## Üçüncü övladları olacaq




**Amerikalı müğənni Adam Levinlə ”Victoria's Secret”in keçmiş modeli, həyat yoldaşı Behati Prinslu yenidən övlad sahibi olacaq.**

**Axşam.az xəbər verir ki, model üçüncü övladına hamilədir. Cütlük restoranların birində olarkən Behatinin qarnının obyektivlərə tuş gəlməsi iddiaları təsdiqləyib.**

***Qeyd edək ki, ikilinin bundan başqa bir qızı və bir oğlu var.***




# 2 evə dəyişmədi

## 100 min lirəyə alıb yeniləyib





**Antalyada İbrahim Seven diqqət mərkəzindədir. O, 1947-ci il model Amerika istehsalı olan avtomobili 100 min lirəyə alaraq, 450 min lirə də pul xərcləyib. O, indi nostalji musiqinin duyğuları altında avtomobili ilə küçələrdə gəzir. Bir nəfər onun avtomobilini almaq üçün 2 milyon lirə, digəri isə 2 evi təklif edib. Lakin Seven təkliflərdən imtina edərək maşına ”oğlum kimi baxıram” deyir.**

Şəhərin mərkəzində yaşayan İbrahim Seven klassik avtomobilə olan marağına görə satışa çıxarılan avtomobil elanlarını araşdırarkən atasının keçmişdə istifadə etdiyi Amerika istehsalı olan 1947-ci il model ”DeSoto” markalı avtomobili görüb. Maşını görmək üçün 3 il əvvəl İstanbula gedən Seven avtomobili 45 yaşlı sahibindən 100 min lirəyə alıb. Vaxt keçdiyindən yararsız hala düşən və bəzi yerləri çürüyən avtomobili Seven evakuatorla Antalyaya gətirib və onun təmiri üçün 18 ay tər töküb.

Nəhayət, o, maşını 450 min lirə xərcləyərək orijinal vəziyyətinə gətirib.

Avtomobili təmir olunduqdan sonra küçələrdə dolaşmağa başlayan Seven 75 yaşlı maşını ilə yolda hər kəsin diqqətini çəkib. Seven, ən böyük zövqünün oğlu Bəkirlə avtomobilində nostalji musiqilər dinləyərək küçələrdə gəzmək olduğunu bildirib.

Bəzi sürücülər hətta onunla bazarlıq etmək də istəyir. Klassik avtomobil həvəskarlarının avtomobili almaq üçün 2 milyon lirə, bir başqasının isə 2 ev təklif etdiyini bildirən Seven avtomobilini satmaq fikrində deyil.

Seven sözlərinə belə davam edir: ”18 aylıq təmirdən sonra maşınımı əvvəlki vəziyyətinə qaytardım. Yollarda diqqət mərkəzinə çevrilir. Siqnal, salam verənlər, şəkil çəkdirmək istəyənlər çoxdur. Qardaşım və qohumlarımın da Amerika istehsalı olan maşınlara sevgisi var. Bu, vaxtı ilə atamın da istifadə etdiyi maşındandı. İki milyon lirə, 2 ev, lüks maşın təklif edənlər var. Qiyməti 550 min lirədir, amma satmaq fikrində deyiləm. Ona uşaq kimi baxıram. Gələcəkdə nə göstərəcək, bilmirəm, Amerika istehsalı klassik maşınlar mənim hobbimdir. Satsam, yenə klassik maşın alacam”.

**Turan**



# Soğan şəkər xəstəliyini sağaldır

## Alimlər siçanlar üzərində tədqiqat aparıblar



**ABŞ-da aparılan tədqiqat zamanı alimlər soğanın bilinməyən faydasını üzə çıxarıb. Məlum olub ki, soğan qanda şəkəri 50 faiz aşağı salmaq gücünə malikdir. Bu barədə ”NTV.com.tr” məlumat verir. Xəbərdə qeyd olunur ki, tədqiqatçı alim Nigeriya Abraka Delta Əyalət Universitetinin tədqiqatçı yazarı Anthony Ojieh bu barədə məqalə yazıb.**

Tədqiqatçı yazır ki, soğan ən asan tapılan və ucuz tərəvəzdir. Lakin çoxları onun necə böyük faydaları olduğundan xəbərsizdir. Halbuki, soğan diabet - şəkər xəstəliyinin müalicəsində geniş potensiala malik tərəvəzdir. Yazar ABŞ-da aparılmış tədqiqata istinad edir. Bildirir ki, siçanlar üzərində aparılmış tədqiqat nəticəsində soğanın anbiotiklərlə birgə istifadə edildikdə qanda şəkərin faizini 50-yə qədər aşağı saldığı müəyyənləşib. Soğan şəkər və xolesterol səviyyəsini güclü bir şəkildə aşağı salır. Əldə edilən klinik nəticələr ”Endocrine Society” toplantısında təqdim edilib. 2-ci dərəcəli diabet xəstələrində orqanizm şəkərin səviyyəsini aşağı salmaq üçün yetərli insulin istehsal edə bilmir. Ona görə də şəkərin səviyyəsi getdikcə yüksəlir və bu da insultla nəticələnir. Tədqiqat zamanı siçanlar diabetik, az diabetik və yüksək diabetik olmaqla 3 qrupa bölünüb və onlara fərqli miqdarda soğan əzməsi verilib. Tədqiqatın sonunda diabetli siçanlarda şəkərin səviyyəsinin 35-50 faiz endiyi müşahidə edilib. Alimlər hazırda soğanla antibiotik dərmanların birgə istifadəsinin şəkərli diabet xəstəsi insanlara necə təsir göstərəcəyi üzərində işləyir.

**Məlahət**

## Van Dammın oğlu özünü xoşbəxt sayır

“Atam demişdi ki, mütləq Azərbaycandan olan bir xanımla evlən”



**Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdiri Vəsilə Vahidqızı məşhur aktyor Jan Klod Van Dammın oğlu Kristofer Van Dam və onun azərbaycanlı xanımı Suada Hacızadədən müsahibə alıb.**

*”Şərq” həmin müsahibəni təqdim edir:*

**- Görüşüb söhbətləşmək fürsəti yaratdığınız üçün sizə təşəkkür edirəm. Diasporla İş üzrə Dövlət Komitəsi ilə əlaqə qurmaq niyyətiniz bizi sevindirdi və vaxt itirmədən görüşünüzə gəldik. Xüsusilə Kristoferi Bakıda görməkdən məmnun olduq.**

*Suada:* Bizimlə görüşə vaxt ayırdığınız üçün biz də sizə təşəkkür edirik.

**- Gəlin tanışlığınızdan başlayaq, harada və necə tanış olmusunuz?**

Kristofer: Atam 2000-ci illərin əvvəllərində Azərbaycana gəlib. Burada qısa müddət qalmasına baxmayaraq, Azərbaycanı çox sevir, çox bəyənir. O vaxtlar atam həm də Suadanın atası ilə tanış olub. ABŞ-a, Los-Ancelesə qayıdanda atam məni ofisinə çağırdı və dedi ki, Azərbaycan adlı bir ölkəyə səfər etmişdim. Çox gözəl ölkədir və parlaq gələcəyi olacaq. Dedi ki, o ölkənin insanları çox mehribandır, mədəniyyəti çox zəngindir. Bilmirəm bunu niyə dedi, amma dedi ki, sən gələcəkdə mütləq Azərbaycandan olan bir xanımla evlən. Həmin vaxt başqa xanımla münasibətlərim var idi, ona görə etiraz etdim. Dedim ki, yox, bu mümkün deyil. İllər sonra Suada ilə instaqramda tanış oldum. Azərbaycan adını görən kimi atamın sözləri yadıma düşdü. Suada ilə düz 4 il instaqramda danışdıq və yaxın dosta çevrildik. Zamanla isə bir-birimizə aşiq olduq.

Atam feysbukda və digər sosial şəbəkələrdə canlı yayıma qoşulurdu. Bir dəfə Yeni ildə o, 100 min izləyicinin iştirakı ilə canlı yayımda olanda ekranda onun adını görür və oxumağa başlayır: Suada Hacızadə. Amma Suadanın kim olduğu, həmin tanışının qızı olduğu ağlına belə gəlməzdi. Suadanı Yeni il münasibətilə təbrik edir və Suada da həmin videonu yazıb saxlayır.

## İlk dəfə...

5 yaşlı uşaq meymuçiçəyinə yoluxdu



**Almaniyada tibdə ilk dəfə beş yaşdan kiçik uşaqda meymunçiçəyi virusu aşkar edilib.**

Medicina xəbər verir ki, yoluxma faktı sentyabrın ilk günlərində qeydə alınıb.

Bu, 5 yaşdan kiçik uşaqlarda qeydə alınan ilk meymunçiçəyi yoluxmasıdır. Bu vaxta qədər 12-15 yaşlı uşaqlarda meymunçiçəyi faktı olub.